QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 148 (5379) 18 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Azərbaycanın hərtərəfli inkişafı dövlət siyasətinin prioritetidir

## Birbaşa Prezident İlham Əliyevin təşəbbüsü ilə iri layihələrin həyata keçirilməsi onu isbatlayır ki, Azərbaycan addım-addım hədəflərinə doğru irəliləyir

Səh 2



7

**Ermənistan ordusunda qətl və intihar halları artır**



13

**Ermənistanın əbədi mənzərəsi: dilənçilik və yoxsulluq**



5

**Bakı konfransı Dünya Skaut Hərəkatının inkişafına mühüm töhfə verəcək**



# Azərbaycanın hərtərəfli inkişafı dövlət siyasətinin prioritetidir

***Bu günün reallığıdır ki, Azərbaycanın hərtərəfli inkişafı istiqamətində bir çox layihələr uğurla icra olunur. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları bu sahədə böyük uğurların yaranmasına imkan verib. Həyata keçirilən işlər sayəsində bölgələrdə minlərlə kiçik, orta və iri sənaye, turizm, kənd təsərrüfatı müəssisələri yaradılıb. Həmin müəssisələrin işə düşməsi iqtisadi inkişafımıza fayda verməklə yanaşı, bölgələrdə əhalinin məşğulluq probleminin həllində də mühüm rol oynayır. Eyni zamanda, bölgələrin tam potensialının üzə çıxarılması və yüksək inkişafın təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü və Sədrliyi ilə ayrı-ayrı bölgələr üzrə müxtəlif sahələrin inkişafına dair müşavirələrin keçirilməsi aqrar və sənaye sektorunda da canlanmaya səbəb olub.***



## Birbaşa Prezident İlham Əliyevin təşəbbüsü ilə iri layihələrin həyata keçirilməsi onu isbatlayır ki, Azərbaycan addım-addım hədəflərinə doğru irəliləyir



Məhz ilk belə müşavirə Saatlı rayonunda pambıqçılığın inkişafı məsələlərinə həsr olunmuşdu. Həmin müşavirədə qeyd edilmişdi ki, pambıqçılığın inkişafı ölkəmiz üçün prioritet sahə sayılır. Lakin məlum səbəblərdən, bu sahədə müəyyən müddətdə geriləmə müşayiət olunub. Odur ki, mövcud geriliyi aradan qaldırmaq məqsədilə bu sahənin inkişafına yeni yanaşmanın tətbiq olunmasına qərar verildi. Bu məqsədlə dövlət fermerlərə pambıq əkinini genişləndirmək üçün əlavə güzəştlər tətbiq etdi. Yeri gəlmişkən, qeyd edək ki, təkcə ötən il büdcə vəsaiti hesabına 1800 texnika, o cümlədən, 94 pambıqyığan kombayn və 300-ə yaxın traktor alınıb. Bu il 3811 texnika, o cümlədən, 209 pambıqyığan kombayn və 810 traktor sifariş verilib. Həmin texnikaların alınması üçün dövlət 150 milyon dollar vəsait xərcləyib. Fermerlərə edilən güzəştlər artıq öz nəticəsini verir.

Aprelin 17-də isə Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində qeyri-neft sektorunun inkişafı geniş şəkildə müzakirə olunmuşdu. Bu tədbirdə dövlət başçısı yeni iqtisadi modelin əsas hədəfinin iqtisadi islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektorunun inkişafı olduğunu bəyan etmişdi: "İqtisadi sahədə görülən tədbirlər, həyata keçirilən islahatlar sayəsində cari ilin birinci rübündə qeyri-neft sektoru 2,4, o cümlədən qeyri-neft sənayesi 2, kənd təsərrüfatı 3,5 faiz artıb. Hesabat dövrü ərzində ticarət dövriyyəsi 15, ixrac 50 faiz çoxalıb, idxal 17 faiz azalıb, aqrar sektorda isə məhsul ixracı 44 faiz artıb. Nəzərə alsaq ki, bu artım ilin birinci rübünə aiddir, ilin sonuna qədər həmin rəqəmlərin daha yüksək olacağı şübhəsizdir".

Sonuncu olaraq, avqustun 4-də Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə həsr olunan respublika müşavirəsi də buna xidmət edirdi. Həmin tədbirdə Prezident İlham Əliyev bildirib ki, qeyri-neft iqtisadiyyatımız, qeyri-neft sənayemiz artdı. İxrac 36 faiz, qeyri-neft ixracı 27 faiz artıb. Kənd təsərrüfatı ixracı 40 faizdən çox artıb: "Bir sözlə, idxaldan asılılığı azaltmaq, daxili tələbatı daxili istehsal hesabına təmin etmək və ixrac imkanlarımızı genişləndirmək məsələləri Azərbaycanda uğurla təmin edilir. Əminəm ki, bugünkü müşavirənin nəticəsində, bizim üçün ənənəvi olan sahələr - baramaçılıq, tütünçülük, fındıqçılıq da uğurla inkişaf edəcək, fermerlər, kəndlilər daha da böyük fayda görəcək, eyni zamanda, dövlətimiz də güclənəcək".

Qaxda keçirilən müşavirədə vurğulanmışdı ki, tütünçülük Azərbaycan üçün ənənəvi sahələrdən biridir. Sovet dönəmində bu məhsulun istehsalının pik dövrü 1978-ci ilə təsadüf edir. Həmin il tütünün əkin sahələrinin həcmi 18 min hektara çatmışdır. Amma 90-cı illərdən bu sahədə tənəzzül dövrü başlandı. Hətta yaxın 2014-cü ildə ölkə üzrə cəmi 1000 hektarda tütün əkilmişdir. Yalnız son illər dövlət tərəfindən bu sahənin inkişafına göstərilən qayğı nəticəsində, tütünçülük də digər ənənəvi sahələr kimi dirçəlməyə başlayıb. Məsələn, 2015-ci ildə Şəkidə 600 hektarda tütün əkilmişdisə, hazırda bu rəqəm 843 hektara çatdırılıb. Zaqatalada əkin sahələri 460 hektardan 740, Qaxda 300 hektardan 600 hektara çatıb. Hazırda ölkə üzrə 3200 hektarda tütün əkilir. Bu gəlirli sahənin inkişafı 13 rayonda bərpa edilib. Prezident İlham Əliyevin 10 avqust 2017-ci il tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nın icrası isə tütün istehsalını daha yüksək səviyyəyə çatdırmağa imkan verəcək. Dövlət proqramın qəbul olunmasında məqsəd tütün və tütün məmulatlarına olan tələbatın ödənilməsi, tütün emalı müəssisələrinin fəaliyyətinin genişləndirilməsi və müasir texnologiyalar əsasında yeni müəssisələrin yaradılması, xammal təminatının yaxşılaşdırılması, tütünçülük məhsullarının ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün ölkədə tütünçülüyün inkişafını stimullaşdırmaqdır.

Aqrar sektorda ən gəlirli sahələrdən biri də fındıqçılıqdır. Fındıqçılıq digər sahələrə nisbətən az ziyan çəkib. Ona görə ki, daxili bazarda bu məhsula tələbat həmişə yüksək olub. Buna görə də, fındıq istehsalı sabit qalıb. Lakin ölkənin istehsal potensialından aşağı olub. İndi bu təzadı aradan qaldırmaq üçün fındıq əkin sahələri genişləndirilir. 2002-ci ildə fındıq bağlarının sahəsi 18 min hektar idisə, hazırda bu rəqəm 55 min hektardır. İmkanlar isə daha genişdir və gələcəkdə fındığın əkin sahələri və məhsul istehsalını daha da artırmağa imkan var. Bir sözlə, bu gün Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi dövlət siyasətinin prioriteti olaraq qalmaqdadır. Birbaşa Prezident İlham Əliyevin təşəbbüsü ilə iri layihələrin həyata keçirilməsi isə, onu isbatlayır ki, Azərbaycan addım-addım hədəflərinə doğru irəliləyir.

***"Səs" Analitik Qrupu***

## Azərbaycan Prezidenti Ağsuda avtomobil yolunun tikintisinə 5,8 milyon manat ayırıb

Azərbaycan Prezidenti İlham Əliyev Ağsu rayonunun Çaparlı-Kəndoba-Cəlayir avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən 8 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Çaparlı-Kəndoba-Cəlayir avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,8 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

# Yeni mənzil alan mətbuat işçiləri Azərbaycan Prezidentinə minnətdarlıq edirlər



***Jurnalistlər üçün tikilən ikinci yaşayış binasının iyulun 20-də - Milli Mətbuat Günü ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilməsi böyük razılıq və sevinc hissləri doğurub. Dövlətimizin başçısının ünvanına jurnalist kollektivlərindən, yeni binada mənzillə təmin olunan KİV işçilərindən təşəkkür məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin rəsmi saytına istinadla xəbər verir ki, məktub müəllifləri bu dəyərli hədiyyəyə görə minnətdarlıqlarını bildirir, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımları, mətbuata dövlət dəstəyini yüksək qiymətləndirirlər.***

Yeni binada mənzil sahibi olan media nümayəndələri arasında İctimai Televiziya və Radio Yayımları Şirkətinin əməkdaşı Əliəsgər Vəliyev də var. O, həyatının ən sevincli günü ilə bağlı Prezidentə ünvanlandığı minnətdarlıq məktubunda yazır: "Hörmətli cənab Prezident, Azərbaycan mediasını xarici təsirlərdən qorumaq, söz və ifadə azadlığının inkişafına dəstək Milli Mətbuatımıza dövlət qayğısının əyani təsdiqidir. Milli Mətbuatımızın yaranmasının 142-ci ildönümü ərəfəsində mənzilə ehtiyacı olan jurnalistlərin arasında mənə də ev verdiyinizə görə şəxsən öz adımdan və ailəmiz adından Sizə sonsuz minnətdarlığımızı və məhəbbətimizi bildirirəm.

Sizin bu təşəbbüsünüz dünya miqyasında ölçüyəgəlməz, möhtəşəm, sözlə ifadə edilə bilməyən humanist, tarixi və unudulmaz bir hadisədir. Bunu yalnız Siz edə bilirsiniz, cənab Prezident!

Sizin bütün qərarlarınız insanların sosial problemlərinin həllinə, onlara ən layiqli həyat şəraitinin yaradılmasına, vətənpərvərlik, dövlətə bağlılıq hisslərinin gücləndirilməsinə yönəlib. Dünyada Sizin kimi böyük ürək sahibi olan, xalqını sevən, gözəl dövlət başçısı yoxdur. Əminik ki, ölkəmiz Sizin rəhbərliyinizlə daim sabitlik və inkişaf məkanı, nüfuz sahibi olacaq".

Məhz Prezident İlham Əliyevin təşəbbüsü və xoş məramı sayəsində boş bir ərazi artıq "Jurnalistlər şəhərciyi"nə çevrilir. Dövlətimizin başçısı dünyada bənzəri olmayan bu layihə ilə yüzlərlə jurnalistə və onların ailələrinə böyük sevinc hissi bəxş edib. Bu sevinci yaşayanlardan biri də İctimai Televiziyanın əməkdaşı Çimnaz Ağakişiyevanın ailəsidir. Ç.Ağakişiyevanın yazdığı məktubda deyilir: "Hörmətli cənab Prezident, həyat yoldaşım, İctimai Televiziyanın böyük rejissoru Ramin Nazıyevə və mənə verdiyiniz böyük mükafata - jurnalistlər üçün yeni tikilmiş binada mənzilə görə Sizə hər ikimizin adından dərin təşəkkürümüzü bildirirəm.

Cənab Prezident, Sizin jurnalistlərə göstərdiyiniz bu yüksək diqqət və qayğı bizi çox sevindirir. Nə yaxşı ki, mən də, həyat yoldaşım da məhz elə bu sənəti seçmişik. Göründüyü kimi, hər bir zəhmətin bir mükafatı varmış. Bu mükafatı Sizin əlinizdən almaq qədər isə böyük şərəf ola bilməz. Sizin gördüyünüz bu savab işi səmimi qəlbdən dəyərləndirən insanların sayı-hesabının olmamasını bizə gələn sonsuz təbriklərdən duyuram.

Cənab Prezident, Siz həqiqətən jurnalistlərin dostusunuz, yeni binanın istifadəyə verilməsi günündə Sizinlə ünsiyyətimizdən, Sizin səmimiyyətinizdən o qədər müsbət enerji aldıq ki, yaqin bundan sonra mənzilimizdə hər zaman həmin günün təəssüratları ilə yaşayacaq və yeni yaradıcılıq ideyalarını həyata keçirəcəyik. Bir daha Sizə ailəmiz adından təşəkkür edirik. Nə yaxşı ki, bizim Prezidentimiz Sizsiniz!"

Azərbaycan Prezidentinə minnətdarlıq məktubu yazan jurnalistlərdən daha birinin fikirlərinə nəzər salaq. "Ədəbiyyat" qəzetinin əməkdaşı Aydın Əbilov 255 jurnalisti mənzillə təmin etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək yazır: "Hörmətli cənab Prezident, Siz müasir Azərbaycan dövlətçiliyinin banisi ümummilli liderimiz Heydər Əliyevin siyasi-fəlsəfi dövlətçilik məktəbinin ən layiqli davamçısı kimi respublikamızın dünya səviyyəli çiçəklənən ölkəyə çevrilməsi üçün misilsiz işlər görürsünüz. Bu işlərin hər biri çağdaş tariximizə qızıl hərflərlə həkk olunur. Siz zəmanəmizin dünya siyasi elitasında özünəməxsus yer tutur, görkəmli dövlət xadimi kimi intellektual-kreativ addımlarınızla, qlobal miqyaslı, planetar əhəmiyyətli demokratik-siyasi modellər yaratmaqda bir çox ölkələrin siyasətçilərinə örnək olur, tədqiqatçıları heyrətləndirirsiniz.

Hörmətli cənab Prezident, aparılan mədəni-sosial siyasətin növbəti əlamətdar hadisəsi Milli Mətbuat Günü münasibətilə 255 KİV nümayəndəsinə jurnalistlər üçün yeni tikilmiş çoxmərtəbəli yaşayış binasında mənzillər bağışlamağınız oldu. Siz 255 ailənin ocağını yenidən yandırdınız, evləri ərməğan etdiyiniz jurnalistlərin siyasi, dini, etnik, hətta müxalifdüşüncəli olmasının fərqinə varmadınız, ehtiyacı olan namizədlərin, onların çoxsaylı ailə üzvlərinin ürəklərini fərəh hissi ilə doldurdunuz. Cənab Prezident, biz Sizin xeyirxah əməllərinizi alqışlayır, Sizə uzun ömür, möhkəm cansağlığı və xoşbəxtlik arzulayırıq".

## Məşhur azərbaycanlı partizan barədə film çəkiləcək



İkinci Dünya müharibəsi illərində Fransa Müqavimət Hərəkatının əfsanəvi iştirakçısı Əhmədiyyə Cəbrayılovun döyüş yolundan bəhs edən "Generalların önündə" adlı film çəkiləcək. Azərbaycan, Rusiya və Fransa kinematoqrafçılarının müştərək işi olan filmin ssenari müəllifi Anar Ömərovdur.

Filmin çəkilişləri barədə AZƏRTAC-a məlumat verən ssenari müəllifi A.Ömərov bildirib ki, ekran işi ilə əlaqədar Şəkidə əfsanəvi partizanın ev-muzeyinə gedərək qəhrəmanın oğlu ilə görüşüb və onun razılığını alıb. Filmin ssenarisi real hadisələrə əsaslanır və partizanın müharibə illərindəki qəhrəmanlıq fəaliyyətini canlandıracaq. Qeyd edək ki, Anar Ömərovun ssenari üzərində apardığı yaradıcılıq işi rusiyalı və fransalı həmkarları tərəfindən yüksək qiymətləndirilib.

## Boliviyanın xarici işlər naziri Azərbaycana rəsmi səfərə gələcək



Boliviya Çoxmillətli Dövlətinin xarici işlər naziri Fernando Uanakuni Mamani avqustun 18-də Azərbaycanda rəsmi səfərdə olacaq. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində nazir Fernando Uanakuni Mamani ölkəmizdə bir sıra görüşlər keçirəcək.

Səfər çərçivəsində Azərbaycan və Boliviya xarici işlər nazirləri Azərbaycan Respublikası Hökuməti və Boliviya Çoxmillətli Dövləti Hökuməti arasında diplomatik və rəsmi xidməti pasportlara sahib şəxslərin vizadan azad edilməsi barədə saziş imzalayacaqlar.

# Azərbaycan investisiya cəlb edən ölkədən investisiya yatıran dövlətə çevrilib

***Bu gün bütün dünyada maliyyə böhranının hökm sürdüyü sahibkarların investisiya qoyuluşlarına son dərəcə ehtiyatlı yanaşdığı bir şəraitdə sabitlik məkanı adlandırılan ölkəmizdə investisiya qoyuluşlarına mühüm önəm verilir. Azərbaycan hazırda investisiya cəlb edən ölkədən investisiya yatıran və xüsusilə, strateji əhəmiyyətli layihələrdə nümunə göstərən dövlətə çevrilib. Dünya ölkələrinin üzləşdiyi mürəkkəb sosial-iqtisadi problemlər fonunda Azərbaycanda təmin olunan təhlükəsizlik, makroiqtisadi sabitlik əlverişli biznes və investisiya mühiti yaradıb.***



Ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Azərbaycanın investisiya mühiti investorların mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması, apellyasiya şuralarının təşkili, "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlərlə tənzimlənir.

Dünya iqtisadiyyatında baş verən mənfi tendensiyalar, demək olar ki, bütün ölkələrdə sərmayə qoyuluşunu azaldıb. Ancaq ölkəmizdəki yaxşı investisiya imkanları və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yaradılan əlverişli biznes mühiti yerli sahibkarlarla yanaşı, xarici investorları da ölkəmizə cəlb edir. Dövlət başçısının tapşırıqlarına əsasən, investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərin nəticəsidir ki, Azərbaycana sərmayə qoyan şirkətlərin sayı ilə yanaşı, onların coğrafiyası da getdikcə genişlənir. Məsələn, ötən il ölkə iqtisadiyyatına 11 milyard 700 milyon dollar sərmayə qoyulub. Bunun 8 milyardı xarici, 3,7 milyardı isə daxili sərmayədir. Bu, bir daha təsdiqləyir ki, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Eyni zamanda, indiyə qədər Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı 60-dan çox saziş imzalanıb. Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycan dövlətinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Respublikamızın xarici dövlətlərlə münasibətlərinin inkişafında investisiya əməliyyatları mühüm rol oynayır. Elə bunun nəticəsidir ki, son 14 il ərzində Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan artıq sərmayə yatırılıb.

Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahib olan Azərbaycanın iştirakı ilə son 14 ildə həyata keçirilən və inşası davam etdirilən layihələrin sırasında Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri, "Şahdəniz", Cənubi Qafqaz kəməri, TANAP, TAP və s. var.

Prezident İlham Əliyevin söylədiyi kimi, bütün bu layihələr, bir daha sübut edir ki, Azərbaycan son 14 il ərzində böyük və şərəfli yol keçib. İri sərmayəçi kimi mövqeyini möhkəmləndirən Azərbaycan regionda xarici ölkələrin iqtisadiyyatına yatırılan investisiyaların həcminə görə, bu gün MDB-də aparıcı dövlətlərdən birinə çevrilib. Dünyanın nüfuzlu iqtisadi tədqiqat mərkəzlərinin hesabatlarında respublikamız bölgədə investisiyaların coğrafi mərkəzinə çevrilən ölkə kimi səciyyələndirilir.



Bir sözlə, son 14 ildə Azərbaycanın sürətli inkişafı, ölkə iqtisadiyyatının dayanıqlığı, rəqabət qabiliyyətinin yüksəlməsi dövlətimizin qüdrətinin artmasına və beynəlxalq miqyasda nüfuzunun daha da yüksəlməsinə imkanlar açıb.

***"Səs" Analitik Qrupu***

## BP-də çalışan azərbaycanlıların sayı 2 min 743 nəfər təşkil edib

Cari ilin birinci yarısının sonuna BP şirkətinin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı 2 min 743 nəfər təşkil edib. "BP-Azerbaijan" şirkətindən AZƏRTAC-a verilən məlumata görə, buraya müddətli müqavilə əsasında işləyən işçilər də daxildir. Şirkətin Azərbaycanda ixtisaslı işçilərinin təxminən 85 faizini yerli mütəxəssislər təşkil edir ki, bunların da çoxu rəhbər vəzifələrdədir. Həmçinin şirkətin regional rəhbər heyətinin tərkibinə altı azərbaycanlı vitse-prezident daxildir. BP-nin 2018-ci ilin sonunadək ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edəcəyi barədə öhdəliyi var. Bu o deməkdir ki, ixtisaslı işçi tələb edən bir sıra vəzifələrdə yerli kadrlar xarici vətəndaşları əvəz edəcəklər. İxtisası olmayan işçilər isə artıq 100 faiz yerli vətəndaşlardan ibarətdir. İşçilərin milliləşdirilməsi planına, həmçinin BP-nin təlim və inkişaf proqramlarının daha da optimallaşdırılması, yüksək səviyyəli kadrlar üzrə yerli bazarı daha da yaxşılaşdırmaq məqsədilə dövlət və özəl sektorun təşəbbüslərində yaxından iştirak daxildir.

## Muxtar respublikada ÜDM istehsalının həcmi 1,4 milyard manatı ötüb



Naxçıvan Muxtar Respublikasında bu ilin yanvar-iyul aylarında 1 milyard 458 milyon 392 min 300 manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz artaraq 3240,2 manata çatıb. Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 604 milyon 952 min manat dəyərində məhsul istehsal edilib ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələyib. Cari ilin yanvar-iyul aylarında 223 milyon 716 min 400 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 3,4 faiz üstələyib. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 12452 ton ət, 58589,8 ton süd istehsal edilib, bir il öncəki göstərici ilə müqayisədə ət istehsalı 2,2 faiz, süd istehsalı 1,3 faiz artıb.

# Bakı konfransı Dünya Skaut Hərəkatının inkişafına mühüm töhfə verəcək

## 41-ci konfransda iştirak edən dünya skautları bu qənaətdədirlər





***Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransı işini uğurla davam etdirir. AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları skaut hərəkatının inkişafı ilə bağlı səmərəli müzakirələr aparır, önəmli qərarlar qəbul edirlər. Azərbaycanda və bütövlükdə Avrasiya regionunda ilk dəfə keçirilən bu konfrans iştirakçıların və dünyanın hər yerindən təmsil olunan milli skaut təşkilatlarının rekord sayına görə əvvəlkilərdən fərqlənir.***

AZƏRTAC xəbər verir ki, konfransın plenar sessiyasında BMT-nin qlobal təhsil üzrə xüsusi nümayəndəsi Qordon Braunun videomüraciəti yayımlanıb. Videomüraciətdə qeyd olunub ki, skaut hərəkatı beynəlxalq aləmdə gənclərin əsas təhsil hərəkatına çevrilməli və bu istiqamətdə daha çox təbliğat işləri aparılmalıdır.

Dünya Skaut Konfransının müxtəlif ölkələrdən olan iştirakçıları beynəlxalq tədbirin yüksək səviyyədə təşkil edilməsini minnətdarlıqla qeyd edir, Azərbaycanda gördükləri qonaqpərvərlikdən məmnunluqlarını bildirirlər. Konfransın Finlandiyadan olan iştirakçısı Lasse Roiha:

-Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransı yüksək səviyyəli təşkilatçılığı, iştirakçıların çoxluğu, müzakirələrin səmərəliliyi ilə seçilir. Tədbirin keçirildiyi məkan - Bakı Konqres Mərkəzi çox gözəldir. Burada skautlar üçün əlverişli şərait yaradılıb. Əminəm ki, Bakı konfransı Dünya Skaut Hərəkatının inkişafına mühüm töhfə verəcək.

<u>**Qvatemalanı təmsil edən Rikardo Vaqner:**</u>

-Dünya Skaut Konfransının Bakıda keçirilməsindən çox şadam. Təşkilatçılıq yüksək səviyyədədir. İştirakçıların rahat şəkildə müzakirə aparmaları üçün hər cür şərait yaradılıb. Azərbaycan dövləti belə mühüm beynəlxalq tədbirlərin keçirilməsində yaxşı təcrübəyə malikdir. Xəzər dənizi sahilində yerləşən Bakıda olmağımdan çox məmnunam. Azərbaycanda gedən inkişaf proseslərinin şahidi oldum.

Braziliyalı skaut Arcangelo Safanelli:

-Konfransda skautların gələcək inkişaf strategiyalarını müzakirə edirik. Ən əsası yaxşı ünsiyyətlər qururuq. Azərbaycanlı skautlarla da tanış olmuşuq və dostluq əlaqələri yaratmışıq. Bu əlaqələri inkişaf etdirəcəyik.

<u>**Danimarka təmsilçisi Morten Trampedak:**</u>

-Bakı skautların beynəlxalq konfransına uğurla ev sahibliyi edir. Müxtəlif ölkələrdən gələn skautlar burada çox faydalı müzakirələr aparırlar. Bizə yaradılan şəraitdən çox razıyıq. Düşünürəm ki, Azərbaycanın dünyaya tanıdılması üçün bu cür böyük tədbirlərin Bakıda keçirilməsi düzgün addımdır.

<u>**Pakistanlı skaut Sajjad Masood:**</u>

-Azərbaycan Pakistan üçün qardaş ölkədir. Ona görə biz burada özümüzü vətənimizdəki kimi hiss edirik. Xalqlarımız arasında dostluq, qardaşlıq münasibətləri mövcuddur. Mən Azərbaycanda bir neçə dəfə olmuşam. Hər dəfə də ecazkar təbiətiniz məni heyrətləndirir. Bakı gözəl və təmiz şəhərdir. Konfransda yüksək əhval-ruhiyyə hökm sürür. Təşkilatçılıq yüksək səviyyədədir. Azərbaycan beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil edir. Biz dəfələrlə bunun şahidi olmuşuq.

<u>**Hindistanı təmsil edən Skaut Azan Abzari:**</u>

-İlk dəfədir Azərbaycandayam. İşimiz çox olsa da, asudə vaxtımızda şəhərlə tanış oluram. Bakını çox bəyəndim. Düzü Bakının belə gözəl şəhər olduğunu təsəvvür etmirdim. Azərbaycanın digər şəhərlərinə də səyahət etmək istəyirəm. Belə irimiqyaslı konfransın yüksək səviyyədə təşkil edilməsi də məni heyrətləndirdi. Təşkilatçılıq mükəmməldir.

<u>**Moldovalı Natalia Curusi:**</u>

-Mən Azərbaycan haqqında çox eşitmişdim və buraya gəlməyi çox istəyirdim. Hava limanından çıxan kimi məni mehribanlıqla qarşıladılar. Yolboyu Bakının gözəlliyinə və təmizliyinə heyran oldum. İnsanlarınız çox qonaqpərvər və dostsevərdir. Konfrans yüksək səviyyədə təşkil edilib.? Bu tədbir Dünya Skaut Hərəkatının inkişafında mühüm rol oynayacaq.

# Azərbaycanlı nümayəndə ilk dəfə olaraq Dünya Skaut Hərəkatı Təşkilatında aparıcı vəzifəyə seçilib




***Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransının dördüncü günündə 2017-2020-ci illər üçün Dünya Skaut Komitəsinə yeni üzvlər seçilib.***

AZƏRTAC xəbər verir ki, 19 namizəddən 12-si Dünya Skaut Komitəsinə üzv seçilib. Sevindirici haldır ki, Azərbaycan Skautlar Assosiasiyasının prezidenti İlyas İsmayıllı da seçilən üzvlər sırasındadır. Beləliklə, ilk dəfə olaraq Azərbaycan nümayəndəsi Dünya Skaut Komitəsinin rəhbər orqanına daxil olub.

İlyas İsmayıllı AZƏRTAC-a müsahibəsində deyib ki, 40 milyon üzvü öz ətrafında birləşdirən Dünya Skaut Hərəkatı Təşkilatının Skaut Komitəsi kimi çox böyük bir ictimai təşkilatın üzvü olmaq böyük şərəfdir. Skaut Komitəsinin qəbul etdiyi qərarlar bütövlükdə təşkilatın inkişaf istiqamətini müəyyən edir. Skaut hərəkatının ölkəmizdə nisbətən gənc - 20 yaşı olduğunu nəzərə alaraq, deyə bilərəm ki, bu, Azərbaycan üçün böyük uğurdur.

“Mənim üçün Dünya Skaut Komitəsinin işində iştirak etməyim skautinqin inkişafına öz baxışıma müvafiq olaraq daha yaxşı kömək etmək imkanımın olması deməkdir. Hesab edirəm ki, Dünya Skaut Hərəkatı Təşkilatının coğrafiyasını, təşkilata daxil olan ölkələrin, xüsusən Mərkəzi Asiya regionundan olan ölkələrin sayını artırmaq lazımdır. Mərkəzi Asiya regionunda görüləsi işlər çoxdur. Həmçinin Dünya Skaut Hərəkatı Təşkilatının strukturunu yeniləmək lazımdır. Bunun uçun komitənin hər bir üzvü müəyyən istiqamətdə işləməlidir”.

## Pakistanlı Zubair Lodhi: Biz şahidi olduq ki, skautinqin ideyaları Azərbaycan cəmiyyətinə çox yaxındır



Bir ölkədə skautinqin inkişafı həmin ölkənin turizminin inkişafına təkan verir. Skautinq ölkənin turizm potensialının təbliğinə yönəlmiş bir sahədir. Bu fikirləri AZƏRTAC-a müsahibəsində pakistanlı skaut Zubair Lodhi deyib. Qonaq Azərbaycanda da skautinqin inkişafına diqqət yetirildiyini, onun ideyalarının cəmiyyətə çox yaxın olduğunu gördüklərini söyləyib. O deyib ki, Azərbaycanda gəzməli və görməli yerlər çoxdur. Bir sözlə, Azərbaycan skautların sevdiyi bir məkandır. Paytaxt Bakı da çox gözəldir. Biz artıq Bakının bir çox yerlərində olmuşuq. Bakı sanki Şərq ilə Qərbin vəhdətini təşkil edir. Müasir binalarla yanaşı, qədim arxitektura nümunələrinə də rast gəlmək mümkündür. Bu rəngarənglik göz oxşayır. Azərbaycan və Pakistan arasında bütün sahələrdə olduğu kimi, skautinq sahəsində də sıx əməkdaşlığın olduğunu deyən Zubair Lodhi Bakıda keçirilən 41-ci konfransın uğurlu nəticələrinin olacağına əminliyini bildirib.

## Dünya Skaut Forumu müxtəlif ölkələrin tarixi və mədəniyyəti ilə tanış olmaq üçün nadir imkan yaradır



Burada dünyanın hər yerindən gəlmiş skautlar toplaşıb. Bu, ən geniş əhatəli forum və ən böyük məkandır. Forumun təşkili çox xoş təsir bağışlayır, hər şey ən yüksək səviyyədə, gözəl təşkil olunub. Biz forumun sessiyaları çərçivəsində kreativ ideya mübadiləsi aparır, qarşıdakı üç ildə görüləcək işləri müzakirə edirik. Forum dünyanın bütün guşələrindən yeni dostlar tapmağa imkan verir. 41-ci Dünya Skaut Konfransının isveçrəli iştirakçısı Martin Jurq Diezelm bu sözləri AZƏRTAC-a müsahibəsində söyləyib. Skaut qeyd edib ki, Azərbaycanda təşkil edilmiş bu genişmiqyaslı forumda iştirak etmək onu çox sevindirir. Martin Jurq Diezelm deyib: “Burada olmağıma çox şadam. Azərbaycan zəngin mədəni ənənələrə malik olan çox gözəl ölkədir. Bakıya gələnə qədər Azərbaycan haqqında, xüsusən “Eurovision-2012” beynəlxalq mahnı müsabiqəsi haqqında çox eşitmişdim. Həmvətənlərim bu müsabiqə ilə bağlı təşkilatı işi çox tərifləd ilər, heyran olduqlarını bildirdilər. Mən Azərbaycana gəlməyi çoxdan istəyirdim”.

İsveçrəli skaut Azərbaycan hökumətinə və Dünya Skaut Konfransının təşkilatçılarına təşəkkürünü bildirərək deyib ki, skautlar bu tədbir çərçivəsində Azərbaycanın əlamətdar mədəni və tarixi yerlərində olurlar. Martin Jurq Diezelm sonda deyib: “Konfransdan əvvəl Qəbələdə olduq. Ora da çox xoşuma gəldi. Sonra biz Bakıya gəldik. Burada gördüklərim mənim gözlədiklərimdən yüzqat güclü təsir bağışladı. Sözün yaxşı mənasında təəccübləndim və həyəcanlandim. Hər şey əladır”.

## Hindistanlı skaut: Azərbaycanlılar çox qonaqpərvər və mehribandırlar

Azərbaycan kimi gözəl bir ölkəyə səyahət etməkdən çox şadam. İnsanlarınız çox qonaqpərvər və mehribandırlar. Burada gördüklərimiz biz skautlarda unudulmaz hisslər yaradıb. Hamımız ölkələrimizə gözəl təəssüratlarla qayıdacağıq. Bu sözləri AZƏRTAC-a müsahibəsində 41-ci Dünya Skaut Konfransının hindistanlı iştirakçısı Diyaz Gumman deyib.

Qonaq bildirib ki, Bakı konfransı hətta onların gözlədiklərindən də yüksək səviyyədə təşkil olunub. Burada skautinqin gələcək inkişafı ilə bağlı çox səmərəli müzakirələr aparılır. Son illərdə skaut hərəkatının artan önəmini nəzərə alsaq bu müzakirələrin çox əhəmiyyətli olduğunu deyə bilərik. “Bakıda bir çox insanlarla əlaqələr qurduq, Azərbaycanla yanaşı, digər ölkələrdən yeni dostlar qazandıq. Burada apardığımız fikir və təcrübə mübadilələri gələcəkdə fəaliyyətimizi daha yaxşı təşkil etməyə imkan yaradacaq”, - deyə Diyaz Gumman qeyd edib. Hindistanlı skaut Bakıda konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

# Daxili işlər orqanlarında xidmətə qəbul şəffaflıq və ədalət prinsipləri əsasında aparılır

***Avqustun 17-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında Daxili İşlər Nazirliyinin baş idarə, idarə və ərazi polis orqanlarında vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.***



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aidiyyəti baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumilikdə 303 iddiaçının arasından daha hazırlıqlı olan 266 nəfərin daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlərlə görüşdə çıxış edən nazir son illər daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb. Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mükəmməl təhsilli, yüksək mənəvi və işgüzar keyfiyyətlərə, hərtərəfli dünyagörüşə malik gənclərin hər zaman dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tövsiyə və tapşırıqlarını xatırladan nazir bu istiqamətdə daim zəruri addımların atıldığını, hazırkı seçimlərin də bu sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü siyasətin növbəti əyani təzahürü olduğunu bildirib.

Qeyd olunub ki, ümumilikdə kadrların hazırlıq səviyyəsinin artırılması, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi ölkə və Daxili İşlər Nazirliyi rəhbərliyinin fəaliyyətində prioritet istiqamətlərdən və daim nəzarətdə saxlanılan məsələlərdəndir.

General-polkovnik Ramil Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək polis adını daim uca tutmalarını, bilik və bacarıqlarını, təcrübələrini daim artırmalarını, müasir dövrün tələblərinə və çağırışlarına cavab vermələrini, informasiya texnologiyalarının ən son nailiyyətlərini praktikada fəal şəkildə tətbiq etmələrini, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını tövsiyə edib, gələcək çətin və şərəfli fəaliyyətlərində onlara uğurlar arzulayıb.

## Cədaqət Vəliyeva: "Regionların inkişafı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir"

"Regionların inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



Deputat bildirib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiqlənmiş və reallaşdırılmış regionların sosial-iqtisadi inkişafı üzrə 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üçün dövlət proqramları çərçivəsində ölkədə ümumi daxili məhsul, o cümlədən, qeyri-neft sektoru, sənaye, kənd təsərrüfatı, investisiyalar, əhalinin gəlirləri və orta aylıq əməkhaqqı dəfələrlə artıb.

"Məhz bölgələrin inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, ölkədə növbəti illərdə də iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığı təmin ediləcək, infrastruktur və sosial xidmətlər daha da yaxşılaşdırılacaq.

***Rəfiqə***

## Eun Ha Li: "Bakı konfransında dünya skautları kreativ ideyalarını paylaşırlar"

Azərbaycanda keçirilən 41-ci Dünya Skaut Konfransı Koreya Respublikası üçün uğurlu oldu. Məhz Bakı konfransında 25-ci Dünya Skaut Camborisinin ev sahibliyi hüququnu Koreya Respublikası əldə etdi. Bakıdakı xoş xatirələrim heç vaxt yadımdan çıxmayacaq.

Bu sözləri Koreya Respublikasından olan skaut xanım Eun Ha Li AZƏRTAC-a müsahibəsində deyib. Azərbaycanın zəngin adət-ənənələrə və mədəniyyətə sahib olduğunu bildirən Eun Ha Li diqqətə çatdırıb ki, Bakı konfransında dünya skautları qeyri-adi və kreativ ideyalarını paylaşırlar: "İştirak etdiyim gərgin müzakirələrin nəticəsi olaraq gələcəkdə bu sahədə daha həvəslə çalışacağam. Bu konfrans mənim həyatımda yeni səhifə açdı. Çünki burada skautinq barədə biliklərimi kifayət qədər genişləndirdim". Ölkəmizə heyran qalmasından məmnunluqla danışan qonaq deyib: "Azərbaycan xalçalarının gözəlliyi məni valeh etdi. Rəngarəng naxışlar insan beynində silinməz izlər buraxır. Bakıda olarkən Azərbaycan xalçaları haqqında ətraflı məlumat toplamışam. Azərbaycanın milli mətbəxinin nümunələri isə çox ləzzətlidir".

## Banqlaşdeş rəsmisi: Azərbaycanda skautinqin inkişafı üçün hər cür şərait var

Azərbaycanda skautinqin inkişafı üçün hər cür şərait var. Bu sahənin Azərbaycanda inkişafı ölkənin turizm imkanlarının genişlənməsinə, turistlərin sayının artmasına xidmət edir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Banqladeşin Fövqəladə Hallar və Xilasetmə Nazirliyinin katibi Şah Kamal deyib. Ölkəmizə ilk dəfə səfər etdiyini deyən banqladeşli qonaq bildirib ki, Azərbaycanın çox gözəl təbiəti var. Qəbələ və Bakı ilə tanış olmaq imkanım olub. Paytaxtınızın möhtəşəm görüntüsü məni heyran etdi. Xəzər dənizi isə Bakının gözəlliyinə əlavə rəng qatır. Ümid edirəm ki, növbəti illərdə yenidən Azərbaycana gəlib istirahət etmək imkanım olacaq.

# Bakıda Dünya Skaut Komitəsinin prezidenti və vitse-prezidenti vəzifələrinə seçkilər keçirilib

***Bakıda təşkil olunan 41-ci Dünya Skaut Konfransının dördüncü günündə - avqustun 17-də Dünya Skaut Komitəsinin prezidenti və vitse-prezidenti vəzifələrinə səsvermə keçirilib.***




AZƏRTAC xəbər verir ki, səsvermənin nəticələri avqustun 18-də elan ediləcək. Konfransın dördüncü günündə, həmçinin plenar iclas və sessiyalar keçirilib, gündəlikdə duran məsələlər ətrafında müzakirələr aparılıb. Bundan başqa, 2020-ci ildə keçiriləcək 42-ci Dünya Skaut Konfransına və 14-cü Dünya Skaut Gənclər Forumuna ev sahibliyinə namizəd ölkələrdən olan Misirin nümayəndələri tərəfindən təqdimat gecəsi təşkil edilib. Təqdimat mərasimində Misirin mədəniyyəti, tarixi və turizm potensialı barədə videoçarx nümayiş olunub. Tədbir iştirakçılarına bu ölkənin milli mətbəxinin nümunələri və şirniyyatları təqdim edilib.



2020-ci ildə keçiriləcək 42-ci Dünya Skaut Konfransına və 14-cü Dünya Skaut Gənclər Forumuna ev sahibliyinə digər namizəd ölkə Malayziyadır. Hər iki namizəd arasından qalib sabahkı səsvermənin nəticəsində məlum olacaq. 41-ci Dünya Skaut Konfransına avqustun 18-də yekun vurulacaq.



# Azərbaycan-Koreya parlamentlərarası əlaqələrinin inkişafı ilə bağlı məsələlər müzakirə edilib

Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransında iştirak edən Koreya Respublikası Milli Assambleyasının bir qrup deputatı avqustun 17-də Azərbaycan Respublikası Milli Məclisində olub. AZƏRTAC xəbər verir ki, görüşdə Dünya Skaut Konfransının əhəmiyyəti, Azərbaycanda Koreya şirkətlərinin fəaliyyəti, parlamentlərarası əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb.

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva bildirib ki, bu cür beynəlxalq tədbirin Bakıda keçirilməsi Azərbaycanın necə inkişaf etdiyinin bariz göstəricisidir. Azərbaycanda son illər bir sıra beynəlxalq tədbirlər keçirilir, dünyanı narahat edən məsələlər məhz burada müzakirə olunur və həll yolları tapılır. Bu, Azərbaycan təcrübəsini dünyaya göstərir, eyni zamanda, beynəlxalq əlaqələrimizi genişləndirir. Azərbaycan dünyada tolerantlıq mərkəzi kimi tanınır. Multikulturalizm Azərbaycanda dövlət siyasətinin tərkib hissəsinə, həm də həyat tərzinə çevrilib. Əsrlərdir ki, müxtəlif mədəniyyətlərin nümayəndələri burada sülh, qarşılıqlı hörmət şəraitində yaşayırlar.

Koreyalı deputatlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı məlumat verilib. Qeyd edilib ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün həyatı yaşayır. Bu insanların arzusu doğma torpaqlarına qayıtmaqdır. Dünyada miqrant problemləri müzakirə ediləndə bütün dövlətlər birlikdə bu problemin həllinə nail olmağa çalışırlar, bundan çıxış yolu axtarırlar. Ancaq Azərbaycan illərdir ki, bu problemlə qarşı-qarşıya qalıb və bunun öhdəsindən gələ bilib.

Koreya nümayəndə heyətinin rəhbəri, Milli Assambleyanın üzvü Li Yu-yanq Azərbaycanda olmaqdan məmnunluqlarını bildirib, bu səfərin onlarda zəngin təəssüratlar yaratdığını qeyd edib. Qonaq Azərbaycan ilə Koreya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi çərçivəsində yaxın vaxtlarda Azərbaycanda Koreya mədəniyyəti günlərinin və digər tədbirlərin təşkil ediləcəyini diqqətə çatdırıb. O vurğulayıb ki, Koreya istehsalı olan texnologiyalar Azərbaycanın sərvətləri ilə birləşəndə böyük uğurlar əldə etmək mümkündür. Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatları yüksək qiymətləndirən deputat Koreya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün əlverişli şərait yaradıldığını söyləyib. O, həmçinin Bakıda 41-ci Dünya Skaut Konfransının yüksək səviyyədə təşkil edildiyini vurğulayıb. Söhbət zamanı ölkələrimizin qanunverici orqanları arasında əlaqələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Ermənistan ordusunda qətl və intihar halları artır



Ermənistan mətbuatı Şirak vilayətinin Hatsik kəndində 19 yaşlı əsgər Abas Sloyanın intiharı ilə bağlı xəbər yayıb. Məlumata görə, Armavir şəhərində xidmət keçən əsgər yoldaşları tərəfindən fiziki zorakılığa və təhqirlərə məruz qalıb. Buna dözməyərək kazarmadan qaçan A.Sloyan əmisinin evində özünü asaraq intihar etmiş vəziyyətdə tapılıb.

Eyni hal Nubaraşen hərbi hissəsində də qeydə alınıb. Vardan Melkonyan adlı əsgər intihar edib. Yaxınları isə onun öldürüldüyünü iddia edirlər. Bununla bağlı artıq Helsinki Vətəndaş Assambleyasına da müraciət olunub. İşğalçı ölkənin ordusundakı qətl və intiharların artması cəmiyyətdə kəskin narazılığa səbəb olub. Müdafiə Nazirliyinin və hökumət binasının qarşısına toplaşan vətəndaşlar övladlarının qatilinə çevrilmiş hökumətin istefasını tələb edirlər. Etirazçılardan biri deyir ki, oğlu xidmətdə olduğu hərbi hissədə yüksək rütbəli zabit tərəfindən öldürülüb. Həmin şəxs prezident Serj Sarkisyanın yaxın qohumu olduğundan cinayətkar cəzasız qalıb.

Vətəndaşlar bildirirlər ki, oğulları hakim rejimin qurbanlarıdır. Onların övladları hərbi xidmətdən ya əlil kimi qayıdır, ya qətlə yetirilir, ya da intihar edirlər. Bu cür hallara son qoyulmasını istəyən valideynlər cəmiyyətə çağırış ediblər. Onlar tövsiyə edirlər ki, hər kəs övladlarını Ermənistan ordusundan yayındırsın. Etirazçılar əsasən də gəncləri Qarabağa göndərməkdən çəkinməyə səsləyiblər. Çağırışda əsasən "Qarabağ bizim torpağımız deyil. Uşaqlarınızı rejimin qurbanına çevirməyin. Əks təqdirdə indi aksiya keçirən anaların aqibəti ilə üz-üzə qalacaqsınız", - deyə valideynlərə müraciət edilib. Həmçinin qeyd olunub ki, cəbhədə vəziyyət daha acınacaqlıdır. Hərbi hissələrdə sosial şərait bərbad vəziyyətdədir. Yemək keyfiyyətsizdir. Hətta zabit ailələri dözülməz şəraitdə yaşayırlar. Hərbi hissələrdə isə intizamsızlıq hökm sürür. Belə vəziyyətdə övladlarının sağ qayıtması ailələr üçün möcüzədir.

# Birləşmiş Ərəb Əmirlikləri qəzeti: Bakı sadəliyin, sakit yaşamın ünvanıdır



Azərbaycanın paytaxtı Bakı sadəliyin, sakit yaşamın ünvanıdır. Burada müxtəlif millətlərin nümayəndələri harmoniya şəraitində yaşayır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Birləşmiş Ərəb Əmirliklərinin "Əl-İmarat əl-yaum" qəzetində Bakıya həsr edilən məqalədə öz əksini tapıb.

Məqalədə bildirilir ki, Xəzər dənizinin sahilində yerləşən, həm qədimliyi, həm də müasirliyi ilə gözəl olan Bakı şəhəri Avropa ilə Asiyanın qovuşduğu məkandır. Bakıda alış-veriş məkanlarının, muzeylərin və qədim binaların yaxın yerləşməsi şəhərdə gözəl sintez yaradır. Bakı küçələrində qışda belə həyat qaynayır. Buranın iqlimi dekabrda da günəşlidir. Sadəliyi və sakitliyi sevənlərin vaxtlarını keçirmələri üçün Bakıda məkanlar çoxdur.

Müəllif yazır ki, Qız qalası qədim Bakıda turistlərin üz tutduqları ən mühüm məkanlardandır. Bakının tarixi inkişafını əks etdirən muzey, eləcə də xatirə hədiyyələrinin satışı üçün guşə fəaliyyət göstərir. İçərişəhər Azərbaycanın tarixi qoruğudur, qala divarları ilə əhatələnib. Bura ənənəvi sənət və sənətkarlıq mərkəzi sayılır. Prezident İlham Əliyevin imzaladığı Sərəncamla İçərişəhər tarixi irs kimi qorunur. Müəllif bölgələrdə turistlərin istirahəti üçün hər cür şəraitin olduğunu da bildirir.

# Gündüz İsmayılov: Radikal dini qrupların Azərbaycanda ciddi dayaqları yoxdur



Ötən illərlə müqayisədə Azərbaycanda dini radikalizm təhdidləri ilə bağlı vəziyyət xeyli yaxşılaşıb. Bu sahədəki təhdidlərin xeyli hissəsinin aradan qalxdığını demək olar. AZƏRTAC xəbər verir ki, bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov jurnalistlərə açıqlamasında deyib. G.İsmayılov bildirib ki, bu, həm inzibati, həm iqtisadi sahədə dini radikal təşkilatlara qarşı aparılan mübarizə, eyni zamanda, maarifçilik sahəsində görülən işlərlə əlaqədardır. Radikal dini qrupların Azərbaycanda ciddi dayaqları yoxdur, belə dayaqların olması da mümkün deyil. Dini radikalizm savadsızlıq, xurafat, təhsildən yayınma meyilləri olan ölkələrdə, bölgələrdə yayılır. Biz də əsasən xurafat meyillərinə qarşı mübarizə aparırıq. Sədr müavini qeyd edib ki, Azərbaycanda son illər ölkədən kənardakı münaqişə zonalarında silahlı birləşmələrə qoşulma halı qeydə alınmayıb. Bunun özü də deməyə əsas verir ki, Azərbaycanda dini radikalizmə qarşı görülən işlərin konkret nəticələri var. Hansısa radikal dini, terror qruplarının Azərbaycana təsir etməsi real deyil. Çünki Azərbaycanın iqtisadi imkanları, hüquq mühafizə orqanlarının bu sahədə fəaliyyəti, eyni zamanda, paralel olaraq aparılan ideoloji iş bu cür qrupların Azərbaycanda özlərinə dayaq tapmasını mümkünsüz edir.

# "Təlim məktəbi" layihəsinin ilk mərhələsi başa çatdı




"Nar" və "Uğur Akademiyası" tərəfindən təşkil edilən bölgələrdə "Təlim məktəbi" layihəsinin ilk mərhələsi başa çatdı. Zaqatalada start verilən layihənin ilk mərhələsi təcrübəli mütəxəssislər və peşəkar psixoloqun iştirakı ilə həyata keçirilib. Təlim iştirakçıları smartfon təmiri, dərzilik və aşpazlıq kurslarında iştirak ediblər. Bölgələrdə bir ilk olaraq həyata keçirilən layihə rayon icra hakimiyyəti və Ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinin regional mərkəzi tərəfindən dəstəklənib. "Təlim məktəbi" layihəsi "Nar" tərəfindən reallaşdırılan və fiziki məhdudiyyətli gənclərin cəmiyyətə inteqrasiyası üçün nəzərdə tutulan bir layihədir. Layihə çərçivəsində bölgələrdən olan 40 nəfər yerli sakinin iki ay boyunca üç istiqamət üzrə peşə təlimi alması nəzərdə tutulub. Bölgələrdə "Təlim məktəbi" layihəsinin növbəti mərhələsinə önümüzdəki günlərdə Göygöl rayonunda start verilməsi planlaşdırılır. "Təlim məktəbi" layihəsi ilk olaraq Bakıda start götürüb və ümumilikdə 75 nəfər tələbənin iştirakı ilə həyata keçirilib. "Nar"-ın təşəbbüsü ilə təmənnasız həyata keçirilən layihənin məqsədi ünsiyyət məhdudiyyətli gənclərin bilik və bacarıqlarını artırmaq, onların gələcək karyeralarına töhfə vermək və mənəvi dəstək göstərməklə cəmiyyətə inteqrasiya etdirməkdir. Təşkilatçılar "Təlim məktəbi"ni bitirən gəncləri diqqət mərkəzində saxlayaraq onların işlə təmin olunmasına yardımçı olur.

Artıq 3 ildən çoxdur ki, "Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində fiziki məhdudiyyətli Azərbaycan vətəndaşlarının cəmiyyətə inteqrasiyası istiqamətində müxtəlif addımlar atır. Yerli biznes mühiti üçün nümunə olaraq qeyd etmək lazımdır ki, 11 nəfər ünsiyyət məhdudiyyətli şəxs hazırda "Nar"-ın əməkdaşı olaraq fəaliyyət göstərir. Mobil operator bu qəbildən olan sosial layihələri genişləndirməyi və bənzər təşəbbüslərə dəstəyi davam etdirməyi nəzərdə tutur. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2,3 milyon istifadəçisi olan "Nar" hazırda ölkə ərazisinin 99%-ni əhatə edən və 6000-dən artıq baza stansiyasından ibarət olan geniş şəbəkəsi ilə abunəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Azərbaycan Sərhəd Mühafizəsinin 98-ci ildönümü

***Azərbaycan sərhədçiləri hər zaman andlarına sadiq qalacaq, Azərbaycan Respublikasının Prezidentinə, dövlətinə və xalqına sədaqətlə xidmət edəcək, müqəddəs sərhədlərimizin keşiyində sayıq duracaqlar!***

***Heydər Əliyev***



## SƏRHƏDÇİLƏRİN SOSİAL PROBLEMLƏRİ UĞURLA HƏLL OLUNUR

Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti sərhədlərin mühafizəsini haqlı olaraq dövlətçilik üçün mühüm amillərdən biri hesab etmişdir. Milli hökumət 1918-ci il iyun ayının 22-də Poylu stansiyasında sərhəd postunun yaradılması barədə qərar vermiş və sərhəd mühafizəsinin təşkili sahəsində vəzifələrin yerinə yetirilməsinə başlanılmışdır. İyulun 12-də Qazax qəzasında Salahlı və Şıxlı sərhəd postları təşkil edilmiş, 1919-cu ilin avqust ayının 18-də isə Azərbaycan Respublikasının Parlamenti “Azərbaycan Respublikasının sərhəd mühafizəsinin təsis edilməsi haqqında” Qanun qəbul etmişdir. Qanunda bütün respublikanı əhatə edən sərhəd postlarının yaradılması nəzərdə tutulurdu. Məhz həmin tarixdə sərhəd mühafizə qüvvələrinin yaradılmasının ilk rəsmi əsası qoyulmuşdur. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev varislik prinsipini əsas götürərək 2000-ci ilin avqust ayının 16-da imzaladığı sərəncamla avqustun 18-ni sərhədçilərin peşə bayramı kimi təsbit etmişdir.

Bolşevik işğalı sərhədlərin mühafizəsi sahəsində zəruri milli təcrübənin formalaşdırılmasına imkan vermədi. Sovet hakimiyyəti illərində Azərbaycanın sərhədləri sovet sərhədçiləri tərəfindən qorunurdu və həmin dövrdə azərbaycanlılar düşünülmüş şəkildə hərb işindən uzaqda saxlanılır, azərbaycanlı gənclərə hərb sənətinin sirlərini öyrənmək imkanı demək olar ki, verilmirdi. Sovet ordusunun zabit korpusunda azərbaycanlıların sayı çox az idi və onlar yüksək hərbi rütbələrə çata bilmirdilər. Sərhəd Qoşunlarında vəziyyət bu mənada daha acınacaqlı idi. Azərbaycanlı sərhədçi zabitlər yüksək hərbi rütbələrə layiq görülmürdülər. Bütün bunlar xalqımızın uzaqgörən oğlu, böyük sərkərdə Heydər Əliyevin diqqətini cəlb etmiş və o, bu sahədə ciddi dönüşə nail olmaq üçün bir sıra tarixi qərarlar qəbul etmiş, Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb yaratmış, bir neçə azərbaycanlı hərbçiyə yüksək hərbi rütbələr verilməsinə nail olmuşdur.



Müstəqillik illərində Azərbaycan ordusunun yaradılması, formalaşdırılması proseslərinə birbaşa rəhbərlik edən, bu sahədəki fəaliyyəti ilə dövlətimizin hərb salnaməsinə şanlı səhifələr yazan Ulu Öndər Sərhəd Qoşunlarının yaradılması, ölkəmizin sərhədlərinin mühafizəsi işinin təşkili istiqamətində böyük uzaqgörənliklə fəaliyyət göstərmiş, milli sərhəd siyasətimizi formalaşdırmış, sərhəd strategiyamızı müəyyənləşdirmişdir. Sərhədlərin mühafizəsi işinə dərindən bələd olan Ulu Öndər 2002-ci ilin iyul ayının 31-də Dövlət Sərhəd Xidmətinin yaradılması barədə qərar verdi. Bu qərar ölkəmizin sərhədlərinin mühafizəsinin təşkilində ciddi dönüşün yaranmasının başlanğıcı oldu. Dövlət Sərhəd Xidmətinin yaradılmasından ötən dövr ərzində qazanılmış uğurlar açıq şəkildə sübut edir ki, Ulu Öndər sərhədlərimizin inkişaf perspektivlərini çox böyük uzaqgörənliklə müəyyənləşdirmişdir.

Sovet sərhədçiləri Azərbaycanı tərk etdikdən sonra Naxçıvan Muxtar Respublikası istisna olmaqla, sərhədçilərimizə demək olar ki, heç nə qalmamışdı. Sovet sərhədçiləri mövcud texnika və vasitələrin hamısını özləri ilə aparmış, apara bilmədiklərini isə yararsız hala salmışdılar. Belə bir vəziyyətdə ölkəmizin sərhədlərinin mühafizəsini öz üzərinə götürən milli sərhədçilərimiz böyük fədakarlıqlar göstərmişlər. Çadırlarda, vaqonlarda, ən yaxşı halda uyğunlaşdırılmış binalarda yerləşən sərhədçilərimiz öz vəzifə borclarını əsasən fiziki imkanlar hesabına yerinə yetirmişlər. Cənub sərhədlərimizdən başqa heç yerdə sərhəd infrastrukturunun və lazımi texniki imkanların olmaması, yerli əhali arasında dövlət sərhədi barədə anlayışın xeyli zəifliyi, peşəkar kadrların çatışmazlığı müstəqillik illərinin ilk vaxtlarının ən böyük problemləri idi.

Lakin qısa müddət ərzində həmin problemlər tamamilə aradan qaldırıldı. Ölkəmizin sərhədçiləri öz peşə bayramlarını xidmətdə qazanılmış böyük nailiyyətlərlə qeyd edirlər. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi ölkəmizin sərhəd mühafizəsinin müasir tələblər səviyyəsinə qaldırılmasına əlverişli zəmin yaratmış, dövlət sərhədlərimizin toxunulmazlığının təmin olunması istiqamətində davamlı dinamik inkişafa nail olunmuşdur.

Cənab Ali Baş Komandanın, mütəmadi olaraq, sərhədçilərlə görüşməsi, yeni tikilmiş sərhəd məntəqələri komplekslərinin açılış mərasimlərində iştirak etməsi, sərhədçilər üçün yaradılmış xidmət və məişət şəraiti ilə yaxından tanış olması, müasir sərhəd infrastrukturunun yaradılması üçün müvafiq göstərişlər verməsi Vətənimizin hüdudlarının mühafizəsi səviyyəsinin yüksəldilməsində, Dövlət Sərhəd Xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsində, müasir texnika, avadanlıq və vasitələrlə təminatda, kadr hazırlığında, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsində öz əksini konkret şəkildə tapmış və Dövlət Sərhəd Xidməti sərhədlərimizin etibarlı mühafizəsini ən yüksək səviyyədə təşkil etməyə qadir olan mütəşəkkil bir quruma çevrilmişdir.

Dövlət sərhədlərimizin toxunulmazlığının təmin olunması, beynəlxalq terrorizmə, qeyri-leqal miqrasiyaya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, yeni sərhəd məntəqələrinin tikintisi, mühəndis-texniki qurğuların bərpası və yaradılması, qoşunların döyüş, fiziki və mənəvi-psixolo-

# Azərbaycan Sərhəd Mühafizəsinin 98-ci ildönümü





ji hazırlığının yüksəldilməsi, idarəetmə infrastrukturunun müasir tələblər səviyyəsinə qaldırılması, buraxılış məntəqələrində sərhəd nəzarətinin təkmilləşdirilməsi, kadrların peşəkarlıq səviyyəsinin artırılması, hərbi qulluqçuların maddi, hüquqi, sosial təminatının yaxşılaşdırılması, beynəlxalq sərhəd əməkdaşlığının inkişafı və s. sahələr üzrə mühüm tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlər sırasında tikinti-quruculuq işləri xüsusi yer tutmuşdur. Əsaslı tikinti-quruculuq işləri aparmadan, yeni sərhəd infrastrukturu yaratmadan müstəqil dövlətimizin sərhədlərinin toxunulmazlığını lazımi səviyyədə təmin etmək mümkün deyildi. Müstəqil Azərbaycan Respublikasının sərhədlərinin uzunluğu sovet Azərbaycanı dövründəki ilə müqayisədə 4 dəfədən də çoxdur. Buna görə də müstəqillik dövründə dövlət sərhədlərimizdə tikinti-quruculuq işləri aparmaq, yeni sərhəd infrastrukturu yaratmaq zəruri idi. Qürur hissi ilə demək olar ki, Dövlət Sərhəd Xidməti dinamik inkişafa nail olmaqla bu vəzifənin öhdəsindən yüksək səviyyədə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən “Azərbaycan Respublikası dövlət sərhədlərinin mühafizə sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi və bu proqramdan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi nəticəsində ölkəmizin sərhəd mühafizəsi xeyli təkmilləşdirilmiş, sərhəd dəstələrində videonəzarət sistemlərinin yaradılması, sərhəd zastavalarında müşahidə kameralarının quraşdırılması və görüntülərin dəstə qərargahına ötürülməsi nəticəsində bilavasitə sərhəd xəttində xidmətin təşkilinə nəzarət gücləndirilmiş, çevik hərəkət qurumları üçün yüksək manevrli və keçid qabiliyyətli nəqliyyat vasitələri, sualtı əməliyyat və müşahidə, istehkam avadanlığı və qoruyucu vasitələr alınmış, çoxsaylı qarnizonlar, sərhəd zastavası kompleksləri və sahil məntəqələri, sosial-məişət obyektləri, o cümlədən mənzillər tikilmişdir.

Sərhədçilərin sosial məsələlərinin həlli xüsusi diqqət mərkəzindədir. Qeyd olunmalıdır ki, sosial məsələlərin həllinə göstərilən diqqət də öz mənbəyini cənab Ali Baş Komandanın bu sahəyə göstərdiyi xüsusi qayğıdan alır. Sərhədçilərlə görüşləri za-



manı Azərbaycan Respublikasının Prezidenti sərhəd mühafizəsi işinin təşkili, texniki avadanlıqlarla təminat, tikinti-quruculuq işləri, döyüş və mənəvi-psixoloji hazırlıq məsələləri ilə yanaşı, şəxsi heyətin sosial-məişət şəraiti ilə də daim maraqlanır. Sərhədçilərin xidmət və sosial-məişət şəraitinə göstərilən qayğı uğurlu nəticələrin əldə edilməsində çox mühüm rol oynayır.

Məlumdur ki, sovet dövründə ölkəmizin yalnız cənub sərhədləri qorunurdu. İran və Türkiyə ilə sərhəddə mövcud olan sərhəd məntəqələri, mühəndis-texniki qurğular sovet sərhədçiləri tərəfindən yararsız hala salınmışdı. Şimal, qərb və şərq sərhədlərimizdə isə heç bir sərhəd infrastrukturu mövcud deyildi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd siyasətinin uğurla davam etdirilməsi nəticəsində indi vəziyyət tamamilə başqa cürdür. Dövlət Sərhəd Xidməti tərəfindən aparılan tikinti-quruculuq işləri sayəsində ölkəmizdə güclü sərhəd infrastrukturu yaradılıb. Vətəni sərhədləri boyunca inşa olunmuş çoxsaylı sərhəd məntəqələrində xidməti yüksək səviyyədə təşkil etmək, yaşamaq və istirahət etmək üçün yaxşı şərait yaradılıb. Sərhəd məntəqələrindəki xidmət otaqları lazımi avadanlıq və vasitələrlə təmin olunub. Yüksək məişət şəraiti olan əsgər ya-



taqxanası, istirahət və təlim otaqları, hamam-camaşırxana, müxtəlif təyinatlı anbarlar, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemləri, zabit və gizir ailələri üçün mənzillər, hətta uşaq şəhərcikləri olan zastava kompleksləri sərhədçilərin xidməti istifadəsindədir.

Müstəqilliyimizin ilk illərində xidməti təşkil etmək üçün ən adi şəraitə malik olmayan sərhədçilərimiz indi müasir tələblərə uyğun mənzillərə malikdirlər. Dövlət sərhədlərimizdə yeni inşa olunan sərhəd məntəqələrinin hamısında istirahət, məişət və digər sosial təyinatlı otaqlar, zabit ailələri üçün yaşayış binaları da tikilir. Sərhəd məntəqələrindəki sosial təyinatlı tikililər, binalardakı mənzillər mebellə, məişət və digər zəruri əşya və vasitələrlə tam təmin olunur.

Şəxsi heyət üçün zəruri xidməti və yaşayış şəraitinin yaradılması istiqamətində bir sıra əsaslı işlər görülmüş və görülməkdədir. Son 15 il ərzində 14 hərbi hissə və struktur qurum, o cümlədən bütün sərhəd dəstələrinin qarnizonları, “Sərhədçi” idman olimpiya kompleksi, Abşeron rayonunun Görədil qəsəbəsində “Sərhədçi” istirahət mərkəzi, Türkan qəsəbəsində DSX Sahil Mühafizəsinin yeni bazası və yaşayış binaları kompleksi, DSX Akademiyası, Şüvəlan qəsəbəsində yeni hərbi hissə, Bakı şəhərinin Nərimanov rayonunda 312 mənzilli yaşayış binaları inşa olunmuş, Dövlət Sərhəd Xidmətinin aparatının binası əsaslı təmir edilmişdir.

Ardı Səh. 10

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

18 avqust 2017-ci il

# Azərbaycan Sərhəd Mühafizəsinin 98-ci ildönümü

Əvvəli Səh. 9

Bu müddət ərzində 109 sərhəd zastavası və sərhəd komendantlığı kompleksləri inşa edilmiş yaxud əsaslı təmir olunmuş, ümumiyyətlə isə 658 xidməti bina istifadəyə verilmişdir. Sərhədçilərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında Bakı şəhərində 624 mənzildən ibarət yaşayış şəhərciyinin inşası və güzəştli ipoteka şərtləri ilə DSX əməkdaşlarının mülkiyyətinə verilməsi layihəsi uğurla icra olunmaqdadır.



Bütün hərbi hissələrdə lazımi tibbi avadanlıqlarla və dərman preparatları ilə təchiz olunmuş tibb məntəqələri sərhədçilərin sağlamlığının keşiyində dayanıb. Bakı şəhərində isə Dövlət Sərhəd Xidmətinin poliklinikası və hospitalı fəaliyyət göstərir. Hər iki tibb müəssisəsinin müasir tibbi avadanlıqlarla təmin edilməsi diqqət mərkəzində saxlanılır, şöbə və bölmələr dünya standartlarına cavab verən müasir aparatlarla təchiz olunub. Sərhədçilərin sağlamlığının keşiyində dayanan Dövlət Sərhəd Xidmətinin Hərbi Hospitalı qabaqcıl təcrübənin və tibb elminin yeniliklərinin, yeni texnologiyaların tətbiqi sahəsində ölkəmizin qabaqcıl müalicə müəssisələri arasında xüsusi yer tutur.

2007-ci il avqust ayının 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin açılış mərasimində iştirak etdiyi “Sərhədçi” istirahət mərkəzində yüksək şərait yaradılmışdır. Goradil qəsəbəsində inşa olunmuş mərkəzdə sağlamlığın bərpası üçün müalicə vannaları, masaj və terapiya otaqları, boulinq zalı, örtülü və açıq hovuzlar, uşaqlar və böyüklər üçün əyləncə mərkəzləri, iri qayıqların yanalma körpüsü, müxtəlif idman, o cümlədən futbol və voleybol meydançaları, çimərlik və sahilyanı kafe fəaliyyət göstərir. Ümumilikdə mərkəzdə 250 nəfərin istirahəti üçün hər cür şərait yaradılıb.

Azərbaycan Sərhəd Mühafizəsinin 94-cü ildönümü ərəfəsində 2013-cü ilin avqust ayının 3-də Lənkəran Sərhəd Dəstəsinin xidməti ərazisində yeni inşa olunmuş “Vel” istirahət mərkəzində sərhədçi hərbi qulluqçuların və onların ailə üzvlərinin mənalı istirahətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb.

Dövlət Sərhəd Xidmətinin hərbi hissə və bölmələrində bədən tərbiyəsi və idman diqqət mərkəzində saxlanılır. Bütün sərhəd zastavalarında və sərhəd dəstələrində futbol, voleybol, basketbol meydançaları, maneə zolaqları, idman şəhərcikləri var.



2009-cu ilin avqust ayının 31-də açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin iştirak etdiyi “Sərhədçi” idman olimpiya mərkəzində voleybol, həndbol, basketbol, mini futbol və digər idman növləri üçün nəzərdə tutulan 2400 nəfərlik qapalı universal idman zalı, FİFA standartlarına uyğun böyük futbol stadionu, kiçik universal stadion, üzgüçülük hovuzu və inzibati bina, mehmanxana və bir sıra yardımçı tikililər və qurğular inşa edilib.

“Sərhədçi” idman olimpiya mərkəzi təkcə sərhədçilərin deyil, respublikamızın idman həyatında mühüm rol oynayır. Müxtəlif beynəlxalq yarışlara, eləcə də respublika birinciliklərinə ev sahibliyi edən “Sərhədçi” idman-olimpiya mərkəzində 25 idman növü ilə məşğul olmaq imkanı var. 2010-cu ildən etibarən sərhədçi idmançılar beynəlxalq və yerli yarışlarda 539 qızıl, 311 gümüş, 620 bürünc medal qazanmışlar.

Bu il ölkəmizdə böyük təntənə ilə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımızın qazandıqları qələbələrə bütün xalqımız kimi sərhədçiləri də ürəkdən sevindirmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqəti və dəstəyi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında keçirilmiş, dövlətimizin gücünün və iqtisadi qüdrətinin növbəti tərənnümünə çevrilmiş IV İslam Həmrəyliyi oyunlarinda qalib komandaların dövlət bayraqlarının idman meydanlarına çıxarılması və dalğalandırılması kimi məsuliyyətli və şərəfli missiyanın məhz Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına həvalə edilməsini yüksək etimad kimi qəbul edən sərhədçilər vəzifələrinin öhdəsindən layiqincə gəlmişlər.

Mötəbər idman yarışında 162 medalla 54 İslamiada ölkəsi arasında birinci olan Azərbaycan yığma komandasının tərkibində “Sərhədçi” idman klubunun üzvlərinin 3 qızıl, 2 gümüş və 2 bürünc medal qazanması sərhədçilər tərəfindən ruh yüksəkliyi ilə qarşılanmışdır.

Sərhədçilərin xidməti-döyüş və sosial-məişət şəraiti yaxşılaşdıqca, sözsüz ki, sərhəd mühafizəsinin səviyyəsi də yüksəlir. Şəxsi heyətin yüksək intizamı və mənəvi-psixoloji durumu, yaxşı əhval-ruhiyyəsi xidməti-döyüş fəaliyyətinin nəticələrinə müsbət təsir göstərir. Son 15 il ərzində Azərbaycan sərhədçiləri tərəfindən 130 min 191 nəfər sərhəd və rejim pozucusu, 24 min 259 nəfər axtarışda olan şəxs saxlanılmış, təxmini dəyəri 106 milyon manat olan qaçaqmalın, o cümlədən 4 ton narkotik vasitələrin dövlət sərhədindən keçirilməsinin qarşısı alınmış, 385 ton narkotik mənşəli bitki kolu aşkar olunaraq məhv edilmişdir.

Bu illər ərzində Dövlət Sərhəd Xidməti tərəfindən Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkarlanması istiqamətində



həyata keçirilən tədbirlər nəticəsində xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 69 nəfər Azərbaycan, 21 nəfər xarici vətəndaş aşkar olunmuş, terrorçuluğa qarşı mübarizə çərçivəsində 81 şəxs saxlanılmış, 339 nəfərin şəxsiyyəti müəyyən edilmişdir. Qanunsuz müqrasiya, qaçaqmalçılıq, o cümlədən narkotik qaçaqmalçılığı ilə məşğul olan 123 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilmişdir.

Bu statistik rəqəmlərin arxasında zabit, gizir, çavuş və əsgərlərin gündəlik fədakar xidməti, göstərdikləri rəşadət və qəhrəmanlıqlar durur.

Sərhədçilərin sosial-məişət problemlərinin həlli, sərhəd mühafizə infrastrukturunun təkmilləşdirilməsi və sərhədlərin etibarlı mühafizəsi istiqamətində tədbirlər uğurla davam etdirilir.

Xidmətin bütün sahələrində ardıcıl həyata keçirilən islahatların səmərəliliyi ilk növbədə xidməti göstəricilərdə öz əksini tapır. Son 15 il ərzində Azərbaycan sərhədçiləri tərəfindən 130 min 191 nəfər sərhəd və rejim pozucusu, 24 min 259 nəfər axtarışda olan şəxs saxlanılmış, təxmini dəyəri 106 milyon manat olan qaçaqmalın, o cümlədən 4 ton narkotik vasitələrin dövlət sərhədindən keçirilməsinin qarşısı alınmış, 385 ton narkotik mənşəli bitki kolu aşkar olunaraq məhv edilmişdir.

Bu illər ərzində Dövlət Sərhəd Xidməti tərəfindən Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 69 nəfər Azərbaycan, 21 nəfər xarici vətəndaş aşkar olunmuş, terrorçuluğa qarşı mübarizə çərçivəsində 81 şəxs saxlanılmış, 339 nəfərin şəxsiyyəti müəyyən edilmişdir. Qanunsuz müqrasiya, qaçaqmalçılıq, o cümlədən narkotik qaçaqmalçılığı ilə məşğul olan 123 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilmişdir.

Bu statistik rəqəmlərin arxasında zabit və gizirlərin, çavuş və əsgərlərin gündəlik fədakar xidməti, göstərdikləri rəşadət və qəhrəmanlıqlar durur.

Bakı şəhərində doqquz mərtəbəli 48 mənzilli və on iki mərtəbəli 264 mənzilli yaşayış binası inşa olunub. Xudat Sərhəd Dəstəsində yaraşıqlı hərbi şəhərcik salınıb. Mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, son 3 il ərzində Bakı şəhərində və Dövlət Sərhəd Xidmətinin hərbi hissələrində üç minə yaxın mənzil tikilmişdir.

2016-cı ildə dövlət dövlət sərhədini pozduqlarına görə 503 nəfər, sərhəd rejimini pozduqlarına görə 13 min 248 nəfər və axtarışda olan 4590 nəfər, saxlanılmışdır.

Dövlət sərhədinin əməliyyat və texniki yolla mühafizəsinin gücləndirilməsi sayəsində Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti məqsədilə xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 7 Azərbaycan, 1 əcnəbi vətəndaş, məxfi əməkdaşlığa cəlb olunmuş 4 Azərbaycan vətəndaşı müəyyən edilmişdir. Xaricdə münaqişə zonalarında döyüşmüş 8 Azərbaycan vətəndaşı saxlanılmış, qanunsuz miqrasiya ilə məşğul olan 6 qrup, qaçaqmalçılıq, narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 5 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilmişdir. 49 milyon 319 min manat dəyərində qaçaqmalın dövlət sərhədindən keçirilməsinin qarşısı alınmış, 2015-ci il ilə müqayisədə 7,2 dəfə çox - 1 ton 189 kq 997,7 qram narkotik vasitənin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınmışdır.

# Əli Kərimli oğurluqda və fırıldaqçılıqda günahlandırıldı

*"Yurd" şefinin mühafizə xidmətinin sabiq rəisi, AXCP Ali Məclisinin üzvü Kərim Mehdiyev yeni faktlar açıqladı*

***Milli və dövlətçildik maraqlarına zidd siyasət aparılması əksər dağıdıcı müxalifət partiyaları daxilində narazılıqlara, bəzən isə ciddi qarşıdurmalara gətirib çıxarıb. İstefaların, qopmaların baş verməsi də, məhz qarşıdurmaların nəticəsidir. Bu cür kütləvi istefalar daha çox AXCP və Müsavat daxilində baş verdiyindən, onu demək olar ki, bu partiyaların sədrləri öz şəxsi maraq və mənafelərini daha çox milli dövlətçilik maraqlarından üstün tuturlar.***



Təbii ki, bunun qarşılığında xarici maraqlı fondlardan və təşkilatlardan külli miqdarda maliyyə yardımları alırlar. Bir qədər əvvəl AXCP-dən istefa vermiş Sabirabad rayon şöbəsinin üzvü Paşa Umudov Ə.Kərimlinin partiya sədri deyil, böyük hoqqabaz və məşhur dələduz olduğunu bildirmişdir. Fikrini də əldə etdiyi bir sıra faktlarla sübuta yetirmişdir. Dünən daha bir cəbhəçi - Əli Kərimlinin mühafizə xidmətinin sabiq rəisi, AXCP Ali Məclisinin üzvü Kərim Mehdiyev Ə.Kərimlini ifşa edən yeni faktlarla çıxış edib.

K.Mehdiyev ifşaedici faktlara Ə.Kərimlinin videomüraciətlə münasibət bildirməsinə kəskin reaksiya verib. K.Mehdiyev qeyri-obyektiv görsənməmək üçün elə Ə.Kərimlinin öz videomüraciətində sadaladığı "faktlar"a istinad edərək, yazdıqların ancaq onun özünə aid olmadığını bildirib: "Yazdıqlarım fərd kimi təkcə mənə aid deyil, bu, Ə.Kərimli tərəfindən aldadılmış, lakin satqınçılıq damğası ilə üzləşməkdən narahatçılıq keçirən yüzlərlə cəbhəçinin mövqeyidir. AXCP sədri elə rəy yaratmaq istəyir ki, guya partiya daxilində hər şey idealdır və hamı onun nağıllarına uyub bu günü sabah hakimiyyətə gələrək, vəzifə alacağı xəyalı ilə yaşayır. Amma elə olsaydı, Əli Kərimlinin dələduzluğunu anlayan ən yaxın silahdaşları - Kərim Mehdiyev, Şahin Həsənli, Rövşən Quliyev, Fuad Mustafayev, Əbülfəz Qurbanlı, Kamil Vəli Nərimanoğlu, Sahib Kərimli və digərləri onun ətrafından uzaqlaşmazdılar və bu gün də AXCP-nin aparıcı simalarından biri olardılar. Diqqət edin, insanlar ideya uğrunda mübarizə apararaq həbsxanaya düşür, övladları, valideynləri ilə ünsiyyətdən məhrum olur, həyatının ən sevincli anı olan nikah mərasimini zindanda rəsmiləşdirir, Ə.Kərimli isə vicdan əzabı çəkmədən belə övladlarının təhsili üçün xərclədiyi vəsaitin hesabatını xalqa verir".

K.Mehdiyev Ə.Kərimlinin videomüraciətində yer alan fikirlərə münasibət bildirərək, qeyd edir ki, Ə.Kərimli əqidə yoldaşalarını aldatmaq üçün hər cür fırıldağa və yalana əl atır: "Xərclədiyi pul vəsaitləri ilə bağlı cəbhəçilər arasında gəzən şayiələrin ictimailəşməsi ona o qədər yer etmişdir ki, həmin hadisədən 2 gün keçdikdən sonra dözməyərək öz əqidə yoldaşlarına yeni nağıllar uydurmağa başlamışdır. Gah həyat yoldaşının evini sataraq, əldə etdiyi pulu oğlunun təhsilinə yönəltdiyini, gah oğlunun yüksək məvacib alaraq, bacısının təhsilinə kömək etdiyini, gah da qızının yay tətilində işləyərək, ailəsinə maddi yardımlar göstərdiyini bildirir. Əli bəy qınanası deyil, bu instinktiv (yəni insanın özündən asılı olmayan, şüuraltı surətdə həyata keçən) müdafiə mexanizmidir və psixologiya elmində onun adı rasionalizasiyadır. Psixologiya elmindən az-çox anlayışı olan hər bir şəxs Ə.Kərimlinin çıxışının özünümüdafiə mexanizminin elementi olduğunu təsdiqləyə bilər. Yəni loru dildə desək, "qara məni basınca, mən qaranı basım" və ya "ən yaxşı müdafiə hücumdur".

K.Mehdiyev Ə.Kərimlinin oğlunun təhsil xərcləri barədə fantastik maliyyə vəsaiti xərcləməsini ört-basdır etmək üçün saxta faktlara istinad etməsini onun zəifliyi ilə əlaqələndirib: "Əli bəy, uşaqlarınızın təhsili ilə bağlı o qədər saxta faktlar sadalamaqdansa, elə birdəfəlik deyərdiniz ki, hamı oğurlayır, mən də oğurlayıram. Yoxsa "həyat yoldaşımın Ayaz Mütəllibov dövründə gənc mütəxəssis kimi aldığı evi satıb oğlumun təhsilinə xərcləmişəm" nağılına yalnız siz və ətrafınızdakılardan başqa heç kim inanmır. Tutaq ki, gənc mütəxəssis kimi həyat yoldaşınıza Ayaz Mütəllibov dövründə 1 otaqlı, lap olsun 2 otaqlı ev veriblər və siz həmin köhnə mənzili 80 min manata satmısınız. Biz yox, özünüz deyirsiniz ki, oğlunuz Bristol Universitetinin hüquq fakültəsini bitirib. Google-da axtarış versək, həmin ali məktəbin siz dediyiniz fakültəsində 1 illik təhsil haqqının 30 min funt sterlinqdən aşağı olmadığını görərik. Yəni 5 ilə 150 min funt sterlinq (330 min manat) + 5 il ərzində minimum 42 min funt (92 min manat) dəyərində kirayə və yemək xərclərini. Bu, yalnız Londonda bir uşağın üzdə görsənən xərcləridir. Hər iki uşağın Bakıdakı təhsil haqlarını və Britaniyadakı xərclərini də buraya əlavə etsək, görsənən xərclər 1 milyon manatı keçəcək (gizli məsrəfləri də nəzərə alsaq, xərclər 2 milyon manatı ötür)".

Kərim Mehdiyev AXCP sədrinin Avropa Məhkəməsindən əldə etdiyi maliyyə vəsaiti ilə bağlı dediklərinə diqqət çəkir: "İndi baxaq sizin səsləndirdiyiniz rəqəmlərə. Avropa Məhkəməsindən əldə etdiyiniz 46 min avronu (siz dediyiniz kimi, 100 min manat) da satdığınız mənzilin pulunun üstünə gəlsək, 180 min manat edir. Deputat olduğunuz 1995-2005-ci illər ərzində, özünüz dediyiniz kimi aldığınız yüksək əmək haqqı ilə, hətta yeməyib-işməsəniz də, belə yerdə qalan 1 milyondan artıq vəsaiti ödəmək mümkün deyildi. Yeri gəlmişkən, özünüz-özünüzü təhrif edirsiniz. Gah deyirsiniz, qızım 1-ci kursda oxuyur, gah da deyirsiz onun tələbə yoldaşlarının çetin tədris ilindən sonra istirahət etməsinə baxmayaraq, o, tələbə vizası ilə işləyir. Hələ 1-ci kursa daxil olan insanın tələbə yoldaşlarının olmasını və çətin tədris ilindən yorulmasını sizdən eşidirik. Yəqin belə demək istəmisiniz: "Qızım 4 illik təhsili başa vurub və hazırda magistraturanın 1-ci kursundadır". Belə demək əlverişli deyil axı, çünki bu, o deməkdir ki, cəbhəçiləri tilsimləyərək, onların hesabına qazandığınız əlavə 70-80 min funt sterlinq də (200-220 min manat) ortaya çıxacaqdır. Yaxşı, bütün cəbhəçilər sizin öz mənzilinizi sataraq, Avropa Məhkəməsindən aldığınız pullar və deputat maaşı ilə övladınızı oxutdurduğuna inandı. Bəs bu qədər imkanınız olaola, sizə maddi kömək üçün müraciət edən onlarla cəbhəçini "pul yoxdur" deyərək əliboş yola salmağınızdan utanmırsınızmı? İndi də etiraf edirsiniz ki, heç demə, pul varıymış, amma əqidə yoldaşlarım üçün deyilmiş. Elə çıxır ki, öz dediyiniz kimi, sizə maddi kömək göstərən əqidə yoldaşlarınız özünüzdən daha mənəviyyatlı və dürüst imişlər. Onlar sizə kömək göstərir, amma hakimiyyət tərəfindən şərlənərək zindanlara atılan onlarla cəbhəçi, onların körpə balaları üçün "pul yoxdur" deyərək, yola verirsiniz. Yeri gəlmişkən, cəbhəçilərin pullarını oğurlamaq sizə və yaxın ətrafınıza xas olan bir ənənə olduğunu elə həmin "Yurd həqiqətləri"ndən oxuya bilərik. Görün, zaman keçdikcə, siz necə də dəyişməmisiniz, Əli bəy. Elə həmin dələduz və fırıldaqçısınız. Sadəcə, dəyişən ətrafınızdakı insanlar olub və bu səbəbdən, yeni gələnlər köhnə xislətinizdən bixəbər olduqları üçün sizə inanıb və öz xəyallarının tərəfinizdən zorlanmasına qeyri-ixtiyari olaraq razılıq veriblər".

K.Mehdiyev 2000-ci illərdə Türkiyədə Yavuz Bülent Bakiler tərəfindən hazırlanmış "E.Elçibey" dərgisində bu suala aydınlıq gətirən məlumatları heç bir şərh vermədən diqqətə çatdırıb: "Öz videomüsahibənizdə 1993-cü ildə sizə verilmiş 3 otaqlı evdən danışırsınız. Baxın görün, tarix bu barədə nə deyir. Heç bir şərh vermədən həmin mənzil və 1994-cü il 10 sentyabr mitinqində sizin polis tərəfindən saxlanılmağınızla bağlı "Yurd həqiqətləri"ni diqqətinizə çatdırıram".

**İ.ƏLİYEV**



## Qaragüruhçuların 2018-ci il xülyaları: uğursuz "flash-mob"

Bəlli olduğu kimi, avqustun 16-da müxalifətin radikal qanadı kimi tanınan AXCP, "Milli Şura" və "NİDA" adlı hərəkat üzvlərinin 30-a yaxın üzvünün Ədliyyə Nazirliyinin qarşısında birgə planlaşdırdıqları icazəsiz aksiyaları baş tutmamış qalıb. Halbuki bu uğursuz aksiyadan öncə, sosial şəbəkədə "kütləvilikdən" bəhs edərək, küçələrə axışacaqlarından bəhs edən AXCP sədri Əli Kərimli və onun saxta profillərində oturan zombilər dəstəsi kifayət qədər özünəinamlı klaviatura qəhrəmanlığı nümayiş etdirdilər. Lakin aksiya, nəinki baş tutmamış qaldı, üstəlik, onlara sifariş verən bir sıra xarici qurumlar da şahidi oldular ki, bu cür müxalifətdən əvvəllərdə olduğu kimi, bu dəfə də heç nə çıxmayacaq.

### Onlar yalnız bir reallığı unudublar ki, Azərbaycanda fəaliyyət göstərən və kifayət qədər peşəkarlıqları, sayıqlıqları ilə seçilən hüquq-mühafizə orqanları mövcuddur

Halbuki əldə edilmiş məlumatlara görə, sözügedən tarixdə keçirilməsi planlaşdırılmış aksiyanın keçirilməsi taktikası tamamilə başqa təsəvvürlər yaradırdı: AXCP sədri Əli Kərimlinin cangüdənlərinin birbaşa rəhbərlik etdiyi həmin qrup Hüseyn Cavid bağındakı çayxanalarda sakitcə oturmalı, əmr gəldiyi andaca, ayağa qalxıb planlaşdırdıqları kimi, Ədliyyə Nazirliyinin qarşısında öz yerlərini tutmalı, "Siyasi məhbuslara azadlıq" sözləri yazılmış plakatlar qaldırmalı və digər qeyri-qanuni şüarlar səsləndirməliymişlər. Fəqət, onlar yalnız bir reallığı unudublar ki, Azərbaycanda fəaliyyət göstərən və kifayət qədər peşəkarlıqları, sayıqlıqları ilə seçilən hüquq-mühafizə orqanları mövcuddur. Beləliklə, məhz polislərimizin sayıqlığı nəticəsində, radikal və dağıdıcı siyasi qurumların, bilavasitə Almaniyadan aldıqları göstərişlə planlaşdırdıqları icazəsiz aksiyanın qarşısı qısa müddətdə alınıb. Bu arada, o da bəlli olub ki, "flash-mob" tipli aksiyanın baş tutmamasının ardınca, AXCP-nin Almaniyadakı təlimatçısı ilə Əli Kərimli arasında narazılıq yaradıb.

### Arif Hacılı Əli Kərimlini "çuğullayıb"?

Digər bir maraqlı məqam, icazəsiz aksiyada iştirak edənlərin "flash-mob"un uğursuz nəticələnməsinin günahını, maraqlı da olsa, Müsavat başqanı Arif Hacılıda axtarmalarıdır. Onlara görə, A.Hacılı həmin ərəfədə Almaniyanın anti-Azərbaycan xarakterli qüvvələri ilə sıx təmaslarda olduğu üçün, Ə.Kərimlinin "liderliyi" ilə keçirilən aksiya baş tutmayıb. Daha dəqiqi, gülünc iddiaya görə, A.Hacılı guya hakimiyyətlə "iş birliyinə" gedərək, "flash-mob" barədə hüquq-mühafizə orqanlarına məlumat sızdırıb. Necə deyərlər, A.Hacılı Ə.Kərimlini "çuğullayıb". Söz yox ki, dağıdıcı müxalifət "liderləri" hər dəfə rüsvayçılığa düçar olduqdan sonra günahı başqalarında axtardıqlarına görə, bu dəfə də A.Hacılını əllərində bayraq ediblər.

### Uğursuz və rüsvayçı "flash-mob" isə Almaniyadakı siyasi dairələrin onlara olan inamsızlığını daha da artırmış olub

Digər maraqlı məqamlardan biri də budur ki, radikal müxalifət partiyalarının "mühacir biznesləri" ifşa olunduqdan sonra, mitinq və aksiyalarında uğur qazana bilməyən "liderlər" sözügedən bazarı əldən verməmək üçün müxtəlif cəhdlərə əl atırlar. Bu dəfə isə Ə.Kərimli oraya toplaşanlara təklif edib ki, tamamilə ayrı bir yerdə cəmləşib, şəkil çəkdirsinlər. Sonra da xaricə "siyasi mühacir" adı altında getmək istəyənlər, məhz həmin şəkil vasitəsilə AXCP sədrinə vəsait ödəyərək, partbilet əldə edib xarici ölkələrə ayaq açsınlar. Yəni başqa bir yerə toplaşıb şəkil çəkdiriblər ki, bu işin təşkilində maraqlı olan Almaniyadakı siyasi dairələrə göndərsinlər. Görünən isə budur ki, 2018-ci ilin xülyalarına dalan radikalların "güllələri" bu dəfə də boşa çıxıb. Uğursuz və rüsvayçı "flash-mob" isə Almaniyadakı siyasi dairələrin onlara olan inamsızlığını daha da artırmış olub.

**Rövşən NURƏDDİNOĞLU**

# Korlar hərbi xidmətə aparılır

*Ermənistan ordusunda rüsvayçılıqlar davam edir*



**Ermənistanda fəaliyyət göstərən Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisi orduda tüğyan edən özbaşınalıqlar və rüsvayçı hallarla bağlı daha bir bəyanat yayımlayıb. Artıq bir neçə müddətdir, düşmən ölkənin ordusunda hərbi çağırış yaşına çatmış gənclərin həkim müayinəsindən korkoranə şəkildə keçirilərək, hərbi xidmətə cəlb edilmələri barədə məlumatlar ictimailəşdirilməkdədir. Bu baxımdan, son zamanlar sağlamlığında ciddi problemlər olan şəxslərin orduya çağırılmaları ölkədə kəskin narazılıqlara səbəb olmaqdadır. Bununla bağlı ofisin rəhbəri Artur Sakunts dəfələrlə beynəlxalq insan haqları təşkilatlarına yazılı şəkildə müraciət ünvanladığını bildirib və yaxın vaxtlarda sözügedən faktın araşdırılacağına ümid etdiyini qeyd edib.**

## Vigen Sarkisyan xəstə əsgərin onunla görüşmək xahişinə rədd cavabı verib

Belə bir fakt erməni ictimaiyyətinin hiddətinə səbəb olub. Məlum olub ki, hələ 2009-cu ildə gözlərində ciddi problemləri olan Razmik Yolçuyan adlı gənc kifayət qədər zəif gördüyü halda, həqiqi hərbi xidmətə çağırılaraq, Qarabağ cəbhəsinə göndərilib. Lakin onun sağlamlığı həmin dövrdə daha da pisləşib və sol gözü tamamilə görmə qabiliyyətini itirib. Nəticədə, onu tərxis etməyə məcbur olan hərbi hissə rəhbərliyi sonradan Yolçuyanın müalicəsi üçün onun aqibəti ilə maraqlanmayıb. Üstəlik, Ermənistanın Müdafiə Nazirliyi də erməni gəncinin müalicəsi üçün gərəkli addımlar atmayıb. Gözdən əlil Yolçuyan isə bildirib ki, əgər gözündə əməliyyat aparılmasa, korluq onun sağ gözünə də keçəcək və tamamilə görmə qabiliyyətini itirəcək. Halbuki bir neçə dəfə aparılan əməliyyatlar uğursuz nəticələnib. İndi isə əməliyyat xaircdə aparılmalıdır. Buna isə, heç bir maddi imkan yoxdur. O, mətbuata Ermənistanın müdafiə naziri Vigen Sarkisyanla şəxsən görüşmək istədiyini desə də, nazir onu qəbul etməkdən imtina edib. Maraqlıdır ki, Ermənistanın müvafiq hərbi-səhiyyə orqanları R.Yolçuyanın orduya çağırılmamışdan öncə, xəstə olduğunu bildiriblər, ancaq xəstə bir insanın nəyə görə hərbi xidmətə aparılmasını, hərbi komissiyadan hansı üsulla "sağlam" qismində keçirilməsini aydın şəkildə izah etməyiblər. Artıq həkimlər də, etiraf edirlər ki, Razmikin bir gözü tamamilə kordur, digər gözünün isə görmə qabiliyyəti 2%-i təşkil edir.

## Ermənistanın müdafiə nazirliyi aprel müharibəsi zamanı yaralanmış əsgərlərin müalicəsinə lazım olan maddi yardımı kəsib

Əslində, bu fakt Ermənistan ordusunda ilk hadisə deyil və adi hala çevrilib. Hətta o da sirr deyil ki, ötən ilin aprel müharibəsi dövründə yaralanmış erməni əsgərləri belə, müalicə almırlar. Çünki Ermənistanın müdafiə nazirliyi artıq həmin əsgərlərin müalicəsinə lazım olan maddi yardımı kəsib. Ona görə də, artıq hərbi xidmətdən yayınma halları durmadan artır, ölkədə hərbi qulluqçu çatışmazlığı problemi yaranmağa başlayır. Xüsusilə, pulu olan ailələr övladlarını hərbi xidmətdən yayındırmaq üçün Ermənistanın Müdafiə Nazirliyinin tabeçiliyində olan çağırış məntəqələrinin rəisləri və hərbi komissiyaları vasitəsi ilə rüşvət verirlər.

## Vnadzor ofisinin rəhbəri Artur Sakunts: "Səhhətində ciddi problemlər olan insanların hərbi xidmətə aparılması ilə döyüş bacarığı həll edilmir"

Vanadzor ofisinin bəyanatında o da qeyd edilir ki, hakimiyyət əhalinin xaricə üz tutmasının fonunda hərbi xidmətə çağırışı təmin edə bilmir və bunu xəstələrin hesabına kompensasiya etməyə çalışır. "Lakin aydındır ki, səhhətində ciddi problemlər olan insanların hərbi xidmətə aparılması ilə döyüş bacarığı həll edilmir, əksinə, orduda ölüm halları daha da artır, hərbçilər arasında qeyri-qanuni münasibətlərin böyüməsinə əlavə stimul yaradır"-deyə A.Sakunts bəyanatında bildirir.

Rəqəmlər də, məhz bu faktları təsdiq edir. 2017-ci il yanvarın 1-dən iyulun 31-nə kimi Ermənistan ordusunda 38 ölüm faktı qeydə alınıb. Bunların heç də hamısı döyüş şəraitində olan ölümlər deyil. Vanadzor ofisi bəyan edir ki, orduda qeyri-döyüş şəraitində baş verən ölümlərin sayı çoxdur. Həmçinin, döyüş şəraitində olan hərbçilərin də təhlükəsizliyinin təmin edilmədiyi bildirilir. Nəticədə, övladlarının həyatlarının itirilməsinin qarşısını almaq üçün valideynlər istənilən məbləği ödəməyə hazır olduqlarını gizlətmirlər. Yaxud gəncləri xarici ölkələrə qaçırdırlar. Belə bir vəziyyətdə ordunun döyüş qabiliyyətli olmasını iddia etmək isə, sadəcə, gülüş doğurur.

**Rövşən NURƏDDİNOĞLU**

## Həcc ziyarəti üçün Səudiyyə Ərəbistanına gəlmiş zəvvarların sayı 800 minə yaxındır

SPA dövlət informasiya agentliyi Krallığın baş pasport xidməti idarəsi tərəfindən dərc edilmiş statistik məlumatlara istinadla bildirir ki, bu günə qədər Həcc ziyarəti üçün xarici ölkələrdən Səudiyyə Ərəbistanına gəlmiş zəvvarların sayı 781.390 nəfər olub. AZƏRTAC xəbər verir ki, həmin məlumatlara görə, zəvvarların sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 124.631 nəfər və ya 19 faiz artıb. Bildirilir ki, zəvvarların 762.709 nəfəri bu ölkəyə hava yolu ilə, 17.968 nəfəri quru yolu ilə, 713 nəfəri isə dəniz yolu ilə gəlib.



# Ermənistan tarix boyu sürüşkən mövqe sərgiləyib

***Elşən Manafov:** "Rusiya istənilən vaxt Sarkisyanı bölgədə özünün geosiyasi maraqlarına cavab verə biləcək digər bir siyasətçi ilə əvəz edə bilər"*

**Son vaxtlar Rusiyaya qarşı Ermənistan ictimaiyyəti arasında ciddi narazılıqlar və etirazlar hökm sürür. Hətta bir neçə dəfə Rusiyanın Ermənistandakı səfirliyi qarşısında etiraz aksiyaları keçirilib. Səbəb isə Rusiyanın Azərbaycana müasir silahlar satması və Azərbaycanla geniş əməkdaşlıq əlaqələri qurmasıdır.**



Bu və digər səbəblərdən, Ermənistan ictimaiyyəti arasında belə bir rəy formalaşıb ki, Rusiyaya heç də bel bağlamaq olmaz. Bunu Ermənistan xarici işlər nazirinin müavini Şavarş Koçaryan da "Azadlıq" radiosuna bəyan edib. Politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, son zamanlar Rusiyanın bölgəyə münasibətdə həyata keçirdiyi siyasət Ermənistan hakimiyyəti, ictimaiyyəti arasında təşviş və qorxu yaradıb: "Bu da təsadüfi deyil. Əvvəla, hər kəsə məlumdur ki, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədrlərindəndir. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik missiyasının öz üzərinə götürmüş üç dövlətdən biridir. Bu baxımdan, Rusiya da öz üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirməyə çalışmalıdır ki, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapsın. Bu baxımdan, Rusiyanın Azərbaycan dövləti ilə münasibətləri Ermənistanda müəyyən məyusluq yaradıb".

Politoloq onu da bildirdi ki, bu gün Ermənistan və Rusiyadan asılı bir ölkədir: "Bu asılılıq təkcə hərbi deyil, iqtisadi və siyasi cəhətdən mövcuddur. Ümumiyyətlə, Rusiya, əslində, işğalçı ölkə olan Ermənistanı ona görə öz təsir dairəsində saxlayır ki, Ermənistan Azərbaycandan fərqli olaraq, müstəqil dövlətçilik siyasəti yeritmək iqtidarında deyil. Ermənistan tarix boyu sürüşkən mövqe sərgiləyib. S.Sarkisyan Rusiyanın təsir dairəsindən çıxıb, Qərblə münasibətlər qurmaq istəyində ola bilər. Ona görə də, Rusiyanın Ermənistan hakimiyyətinə münasibəti bu hakimiyyəti daim təsir altında saxlamaq və müəyyən edilmiş qırmızı xətti keçməyə işğalçı ölkəyə imkan verməmək istəyindən və marağından irəli gəlir".

"Rusiyaya qarşı antipatiyaya cavab olaraq Vladimir Putin Sarkisyanı başqası ilə əvəzləyə bilərmi" sualına cavab olaraq, politoloq bildirdi ki, əgər Sarkisyan V.Putinin müəyyən etdiyi siyasi kursun həyata keçirilməsində fərli mövqe sərgiləyərsə, bu, problem deyil: "Rusiya istənilən vaxt Sarkisyanı bölgədə özünün geosiyasi maraqlarına cavab verə biləcək digər bir siyasətçi ilə əvəz edə bilər. Yeri gəlmişkən, artıq yer dəyişdirmənin həyata keçirilməsində problem yaranmayacaq. Çünki Ermənistanda dövlət hakimiyyətinin idarəetmə forması dəyişdirilib. Əgər Sarkisyan Rusiyanın maraqlarına zidd siyasət yürüdərsə, bu, hakimiyyət dəyişikliyi ilə yekunlaşa bilər. Bunu Sarkisyan və onun hərbi xunta üzvləri də çox yaxşı başa düşürlər, Bu mənada, düşünürəm ki, Sarkisyan Putinin müəyyən etdiyi strategiyadan və siyasi xətdən kənar addım atmaq fikrində və iqtidarında ola bilməz. Buna onun cürəti də çatmaz.

**GÜLYANƏ**

## Ötən ay nikaha daxil olmaq istəyən 18 min nəfərə yaxın gənc tibbi müayinədən keçib

"Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Qanunun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiqi ilə əlaqədar 2015-ci il iyunun 1-dən nikaha daxil olmaq istəyənlər tibbi müayinədən keçirlər.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a xəbər veriblər ki, ölkəmizdə nikaha daxil olmaq istəyənlərin icbari tibbi müayinəsi tətbiq olunduğu iki ildən artıq müddətdə 309 min 224 nəfər müayinə olunub. Təkcə ötən ay ailə qurmaq arzusunda olanlardan 17 min 793 nəfər tibbi yoxlamalardan keçib. Həmin müddətdə müayinələrdən keçənlərdən bəzilərində müxtəlif xarakterli infeksiyalar aşkar edilsə də, ümumilikdə onların əksəriyyətinin sağlamlığı vəziyyəti qənaətbəxşdir. Tibbi müayinədən keçən 12 min 594 nəfərdə talassemiya daşıyıcılığı, 1456 nəfərdə sifilis, 225 nəfərdə isə QİÇS aşkar olunub.

## Yarım ildə "Azəri-Çıraq-Günəşli"də hasilat 106 milyon barreldən çox olub

Bu ilin yanvar-iyun aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan hasilat 106 milyon barreldən çox, yəni 14 milyon tondan artıq təşkil edib. "BP-Azerbaijan" şirkətindən AZƏRTAC-a bildirilib ki, hesabat dövründə AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. AÇG-dən ümumi hasilat - "Çıraq" (56 min), "Mərkəzi Azəri" (129 min), "Qərbi Azəri" (116 min), "Şərqi Azəri" (77 min), "Dərinsulu Günəşli" (120 min) və "Qərbi Çıraq" (87 min) platformalarından birlikdə - gündə orta hesabla 585 min barrel olub.

AÇG-də ümumilikdə 112 neft hasilat quyusu, 48 qaz və su injektor quyusu istismarda olub. Yarım ildə blokda 11 neft hasilat və 2 suvurma quyusu qazılıb. Altı ayda AÇG layihəsinə təqribən 230 milyon dollar əməliyyat və 601 milyon dollar isə əsaslı məsrəflər xərclənib.

AÇG-də iştirak payları belədir: BP (operator - 35,8 faiz), SOCAR (11,6 faiz), "Chevron" (11,3 faiz), "Inpex" (11 faiz), "Statoil" (8,6 faiz), "ExxonMobil" (8 faiz), "TPAO" (6,8 faiz), "Itochu" (4,3 faiz), "ONGC Videsh Ltd." (OVL) (2,7 faiz).

# Ermənistanın əbədi mənzərəsi: dilənçilik və yoxsulluq

*Serj Sarkisyanın siyasi resursları tükənib*



**Müasir dövlətin və cəmiyyətin simasını göstərən ən əsas məsələ ölkəyə rəhbərlik edən şəxsin gördüyü iş və xalqına və vətəninə məhəbbətidir. Eyni zamanda, o ölkə inkişaf yolunda olur ki, onun iqtisadiyyatı güclü olur. Artıq 8-9 ildir ki, işğalçı ölkəyə rəhbərlik edən qaniçən, cinayətkar və faşist Serj Sarkisyanın əsl simasıdır desək, ölkədə hökm sürən ağır iqtisadi durum, nəticədə, siyasi durumun da gərginləşməsinə səbəb olub. "Aykakan Jamanak" qəzetinin yazdığına görə, Ermənistanda sosial-iqtisadi vəziyyətin durmadan pisləşməsi fonunda ölkə hakimiyyətindən narazılıq daha böyük sürətlə artmaqdadır: "Aparılan son rəy sorğuları, bir daha göstərir ki, əhalinin 78 faizi Serj Sarkisyan iqtidarının hakimiyyətdən getməsini istəyir. Bunu şərtləndirən əsas səbəblər isə, təkcə sosial-iqtisadi amillərlə yanaşı, siyasi repressiya dalğasının genişlənməsidir".**










## Lilit Qalstyan:" 2017-ci il üçün qəbul edilmiş dövlət büdcəsi dövlətin məhvinə yol açan büdcədir"

Ermənistan parlamentinin deputatı Lilit Qalstyan 2017-ci il üçün qəbul edilmiş dövlət büdcəsinin dövlətin məhvinə yol açan büdcə olduğunu bildirib: "Bütün bu problemlərin baş verməsinin səbəbkarı Sarkisyanın uğursuz siyasətidir. Çünki avtoritar rejim yalnız özünü düşünür".

Ermənistan Dövlət Universitetinin İqtisadiyyatın nəzəriyyəsi kafedrasının rəhbəri Mikael Mikaelyana görə isə, Qərb sanksiyalarının Ermənistan iqtisadiyyatının çox asılı olduğu Rusiyaya qarşı tətbiqinin nə qədər davam edəcəyi məlum deyil: "Bu il Ermənistan ixracatının həcmi kiçilib, vətəndaşların alıcılıq səviyyəsi aşağı düşüb. Rusiyadan köçürmələr əhəmiyyətli dərəcədə azalıb. Dövlət borcu artıb. İqtisadiyyat heç də yaxşı vəziyyətdə deyil. Artıq erməni diasporu da Ermənistana və Dağlıq Qarabağa yardım etməyi rədd edir. Nəticədə, xalq qaniçən Sarkisyanın idarə etdiyi ölkədə yaşamaqdan imtina edərək, ölkəni tərk etməyi daha düzgün yol seçir. Qarnı tox, gözü dolusu yaşamaq üçün..."

Göründüyü kimi, bütün bunlar bir daha Ermənistanın mövcud hakimiyyətinin idarəçilikdə tam repressiv metodlara üstünlük verdiyinin əyani göstəricisi hesab olunur.

## Levon Keşayan: "Ermənistan bu bəladan xilas olmaq üçün Azərbaycanla münasibətləri qaydaya salmalı, işğal olunmuş torpaqları azad etməlidir"

Erməni yazıçısı Levon Keşayanın ölkədə yaranmış ağır ictimai-siyasi və sosial-iqtisadi vəziyyətə etiraz olaraq, ona dövlət tərəfindən verilən mükafatı almaqdan imtina etməsi də, bu fonda xüsusi diqqət cəlb edir. Parisdə erməni lobbisinin vəsaiti hesabına nəşr olunan gündəlik "Ermənistan xəbərləri" jurnalında yazıçının vətən qarşısındakı xidmətlərinə görə, bir sıra həmkarları ilə yanaşı, ordenə layiq görüldüyü bildirilir. Qeyd olunur ki, L.Keşayan təqdimat mərasiminin keçirildiyi prezident sarayına gəlməməklə tədbiri boykot edib. Yazıçı jurnalistlərə deyib ki, ölkə rəhbərliyinin apardığı səviyyəsiz siyasət nəticəsində, əhalinin əksəriyyətinin yoxsulluğun son həddində yaşamasına, çoxlu sayda erməninin doğma vətənini tərk edərək xarici ölkələrə üz tutmasına etiraz əlaməti olaraq, belə bir addım atıb: "Ermənistan bu bəladan xilas olmaq üçün Azərbaycanla münasibətləri qaydaya salmalı, işğal olunmuş torpaqları azad etməlidir".

L.Keşayan onu da deyib ki, məhz bunun nəticəsidir ki, Ermənistan dəfələrlə dünyanın ən zəif iqtisdiyyata sahib və korrupsiyalaşmış dövlətləri sırasına daxil edilib. Göründüyü kimi, Azərbaycan torpaqlarını işğal altında saxlayan təcavüzkar ölkə artıq xalq üsyanı ərəfəsindədir. Bu üsyan baş verərsə, Sarkisyan rejiminin çıxılmaz vəziyyətdən çıxış yolu tapmaması ilə nəticələnəcək. Bu isə, Ermənistanın məhv olması anlamını daşıyan faktor kimi qiymətləndirilməkdədir.

**A.SƏMƏDOVA**

SİYASİ RAKURS

# Mehman Əliyevin "kişiliyi", yaxud düşüklüyü

## *"Turan" informasiya agentliyi və vergi yoxlanılması kimləri və niyə narahat edir?*

***Vergilər Nazirliyinin "Turan" informasiya agentliyini yoxlaması və agentliyin dövlətə borclu olduğu 37 min manatı ödəməsi yerinə aşkar həyasızlıq nümayiş etdirməklə nazirliyi məhkəməyə verməsi, bir daha sübut edir ki, bu agentliyin baş direktoru Mehman Əliyevin məqsədli addımları xidmət etdiyi xarici dairələrin sifarişini yerinə yetirməyə hesablanıb. Çünki fakt budur ki, istənilən sivil ölkədə fəaliyyət göstərən istənilən qurum mütləq şəkildə vergi ödəməli, bununla dövlətin və xalqın mənafeyinə xidmət göstərməlidir.***

### Antimilli "Milli Şura"da təmsil olunan Mehman Əliyevin bənzər addımlar atmasından təəccüblənməyə dəyməz

Onu da qeyd edək ki, yarandığı vaxtdan Qərbin və erməni lobbisinin xeyrinə işləyən, daim dövlətçilik əleyhinə çıxışları ilə yadda qalan, xəyanətkar və satqınların yığnağı olaraq qiymətləndirilən antimilli "Milli Şura"da təmsil olunan M.Əliyevin bənzər addımlar atmasından təəccüblənməyə dəyməz. Belə ki, onun və "lider" hesab etdiyi kəslərin xislətləri xəyanət xəmiri ilə yoğrulub.

Digər tərəfdən, vergi yoxlamaları ilə bağlı qanuna müvafiq şəkildə atılmış bu addımı xaricdəki havadarlarına - "söz və ifadə azadlığı" istiqamətində fəaliyyət göstərən şantajçı təşkilatlara çatdırmaqdan ötrü, necə deyərlər, "tumanını başına çəkən" M.Əliyevin müdafiəsinə qalxan müxalifət qurumları dərhal əsassız bəyanatlar verərək, bu məsələdə şəxsi mənfəətlərini güdməyə başlayıblar. Misal üçün, Müsavat partiyası, AXCP, "Milli Şura" və s.qaragüruhçu siyasi təşkilatların M.Əliyevin "müdafiəçisi" qismində çıxış etmələri də bu xüsusdandır. Onun "təmiz", "pak", yaxud da "vicdanlı" şəxs olaraq təqdim edilməsi, ümumiyyətlə, heç bir məntiqə söykənməyən bir haldır.

Baxın, M.Əliyev bir tərəfdən "haqqın" və "ədalətin" carçısı kimi qiymətləndirilir, hətta az qala "mələk" kimi



təqdim edilir, ancaq reallıqlar tamamilə əks-istiqaməti göstərir. Bunun üçün isə, uzağa getməyə ehtiyac yoxdur. Daha doğrusu, faktlara müraciət edərək, dövlətin vergisini ödəməməkdən ötrü min bir hoqqabazlıq göstərən, cilddən-cildə girən M.Əliyevin həqiqi "simasını", yəni simasızlığını ortaya qoya bilərik. Məsələn, hələ 2015-ci ildə "Yeni Müsavat" qəzetinə müsahibəsində geninə-boluna danışan M.Əliyev "kişilikdən" dəm vurub, deyib ki, siyasi səhnədən getsə belə, "kişi kimi" gedəcəkmiş və s. Ancaq gəlin görək, M.Əliyev, həqiqətən də, kişiliyə xas olan xarizmaya malik biridirmi?

### Hüquq müdafiəçisi Sahib Məmmədov: "Otağımda gəzib, mənə yalvarırdı ki..."

Məsələn, hüquq müdafiəçisi Sahib Məmmədovun 2015-ci ildə ölkə saytlarının birinə M.Əliyev barədə verdiyi açıqlamasında qarşı tərəfin heç də sözünə sadiq qalan, kişi xüsusiyyətinə malik olan tələblərə cavab verən insan olmadığı dilə gətirilib. Linki də təqdim etməklə, M.Əliyev barədə fikirləri diqqətinizə çatdırırıq.

(http://az.azvision.az/%60Mehman_Eliyev_mene_yalvarirdi...%60_-71924-xeber.html)

SİTAT: "Bu, o adamdır ki, vaxtılə mən Prezident Aparatında (indiki Prezident Administrasiyası-R.R.) şöbə müdiri işləyəndə, qəbul otağımda gəzirdi. Şəxsi firma təsis eləmişdi və guya Sumqayıtla bağlı film çəkəcəkdi. Mənə yalvarıb inandırmışdı ki, film çox vacibdir. Mən də Sumqayıt və daha 3 rayon icra hakimiyyəti başçılarına həmin hesablara müəssisələrdən pul köçürülməsini tapşırmışdım. Külli miqdarda pul toplanmışdı. İyun hadisələri baş verdi və bu şəxs həmin pulla indiki "...Turan" agentliyini yaratdı, o dövr üçün müasir avadanlıqlar aldı."

Beləliklə, M.Əliyev əgər həqiqətən də, özünü təqdim etdiyi xüsusiyyətlərə malik olsaydı, heç nəyə baxmayaraq vədinə əməl edərdi, daha baş verən hadisələri bəhanə edib, sonradan əldə etdiyi pul-paranı şəxsi biznesinə çevirməzdi.

### Əldə etdikləri rüşvət deyildisə, bəs nə idi, bəlkə, Ermənistanın istehsal etdiyi "Anuş" konfetlərinin kağızı?

Daha bir fakta diqqət yetirək. 2013-cü ilin prezident seçkiləri ərəfəsində "Milli Şura"nın Cəmil Həsənlidən öncəki sədri Rüstəm İbrahimbəyovun Rusiya vətəndaşlığından çıxarılması, beləliklə də, Azərbaycana gəlib prezident seçkilərində "vahid namizəd" kimi iştirak etməsi üçün Rusiya prezidentinə məktub yazan, daha çox isə, yalvarıb-yaxaran M.Əliyev sübut edib ki, o, təkcə rusun deyil, erməninin də qarşısında diz çökməyə hazır olduğunu gizlətmir. Çünki "Milli Şura"nın yaradılmasının arxasında Rusiyanın qaranlıq dairələrinin dayanması sübuta yetirilmişdi, həmin dairələri maliyyələşdirənlər arxasında ermənilərin də olması isbatlanmışdı. Gəlin, sonda belə bir tapmacalı nəticə çıxaraq: M.Əliyev öz ifadələrində nə qədər səmimi görünə bilər? O, həqiqətənmi özünü "kişi" hesab edir? Bu sualların cavabı qalır insaf və vicdan seçiminə...

Rövşən RƏSULOV

***P.S. Yeri gəlmişkən, M.Əliyev ağzına çullu dovşan yerləşməyən ifadələri ilə iddia etmişdi ki, jurnalistlərə 1-ci binadan mənzillərin verilməsi təşəbbüsü irəli sürülərkən, mənzil verilməsi üçün ona əməkdaşların siyahısının verilməsi təklif edilmişdi. Amma o, bundan imtina edərək, səmimi təklifi "jurnalistin rüşvət almasının başqa bir forması" (?!-R.R.) olaraq qiymətləndirmişdi. Yaxşı, bəs onda xarici təşkilatlardan qeyri-qanuni yollarla aldığı pul-paralar, yaxud da hüquq müdafiəçisi S.Məmmədovu aldadaraq, özünə biznes qurmasında istifadə etdiyi maddi vəsaitlər rüşvət deyildisə, bəs nə idi? Bəlkə, Ermənistanın istehsal etdiyi "Anuş" konfetlərinin kağızı?***

# 2025-ci ilə dünyada 5G şəbəkələrinə qoşulmaların sayı 1,4 milyard olacaq



***2025-ci ilə dünyada 5G şəbəkələrinə qoşulmaların sayı 1,4 milyarda bərabər olacaq. AZƏRTAC xəbər verir ki, bu barədə "Juniper Research" analitik şirkətinin proqnozunda deyilir. Lakin qeyd edilir ki, 2019-cu ildə yeni mobil texnologiyanın kommersiya istifadəsi üzrə birinci ildə 5G şəbəkələrinə qoşulmaların sayı təxminən 1 milyon təşkil edəcək.***

Proqnoza görə, Çin, ABŞ və Yaponiya 5G şəbəkələrinə qoşulmaların sayı üzrə lider dövlətlər olacaqlar. 2025-ci ilə 5G şəbəkələrinə qoşulmaların ümumi sayının 55 faizi bu üç ölkənin payına düşəcək.

Analitiklər yeni simsiz texnologiyanın rabitənin keyfiyyətinə görə fiber optik xətlə rəqabət aparması üçün mobil operatorlara real iş şəraitində 5G şəbəkələrini genişmiqyaslı sınaqdan keçirməyi məslərət görürlər.

"Maksimum sürəti və qoşulmanın etibarlılığını təmin edəcək şirkətlərin şəbəkələri "ARPC" (bir qoşulmadan götürülən orta gəlir) üzrə ən yüksək göstəricilərə nail ola biləcək ki, bu da operatorlara "5G" texnologiyasına yatırılmış investisiyaların geri qaytarmağa imkan verəcək", - deyə hesabatın müəllifi Sem Beyker bildirir.

# Bu gün paytaxtda hava dəyişkən buludlu, əsasən yağmursuz olacaq

***Ölkə ərazisində avqustun 18-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.***



Havanın temperaturunun Abşeron yarımadasında gecə 22-25°, gündüz 29-34° isti , Bakıda gecə 23-25°, gündüz 30-32° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 24-25°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26°, Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti təşkil edəcək.

Azərbaycanın bəzi rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 20-25°, gündüz 32-37° isti, dağlarda gecə 12-17°, gündüz 22-27° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 16-21°, gündüz 31-36° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Gündüz hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 12-17°, gündüz 22-27° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Gündüz hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 19-24°, gündüz 31-36° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 16-21°, gündüz 28-33° isti, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 20-25°, gündüz 32-37° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 22-24°, gündüz 30-35° isti, dağlarda gecə 17-19°, gündüz 20-24° isti olacağı gözlənilir.

# Azərbaycan dövlətçilik tarixində xalq cümhuriyyətinin yeri

**_Azərbaycan dövlətçilik tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yerini və rolunu aşağıdakı kimi müəyyən etmək olar:_**

1. Şərqdə ilk demokratik, hüquqi və milli türk-müsəlman respublikası - Avropa milli respublikası yaradıldı;

2. Azərbaycanlıların ilk müstəqil dövlətçilik ənənələri davam etdirildi.

Məhz bu cəhətləri yüksək qiymətləndirərək, Ulu Öndər Heydər Əliyev demişdir: "Biz Azərbaycan Xalq Cümhuriyyətinin varisləriyik. 1991-ci ildə Azərbaycanda müstəqillik elan edilərkən yazılıbdır ki, 1920-ci ildə itirilmiş müstəqillik bərpa olunur. Mən bu gün qürurla deyirəm ki, biz Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisləriyik".

Millət və dövlət tarixi kateqoriya olub, biri digərilə daimi əlaqədə olan iki fenomendir. Dövlətin mövcudluğu millətin siyasi birliyini yüksəldir, onun millət kimi inkişafına şərait yaradır. Dövləti təşkil edən əsas millətə, digər xırda etnoslar da qoşulur, millətin etniklərarası konsolidasiyası baş verir. Millət özü də etnik cəhətcə təkmilləşir, onun dil və mədəniyyətinin inkişafı üçün dövlət tərəfindən lazımi şərait yaradılır. Bu yolla da millət-dövlət yaranır. Bu proses müxtəlif ölkələrdə və müxtəlif xalqların həyatında müxtəlif şəkildə baş verir. Universal olan cəhət isə, ondan ibarətdir ki, dövlət milləti formalaşdırır, millət də, öz növbəsində, dövləti inkişaf etdirir. Dövlətin formalaşmasında adət-ənənə və mövcud qaydaların rolu böyükdür. Millət-vətəndaş anlayışı millətin etnik millətdən siyasi millətə doğru inkişafını göstən bir amildir.

Azərbaycan dövlətçiliyinin qədim bir tarixi vardır. Bu dövlətçilik müxtəlif tarixi inkişaf formalarını yaşamış və müəyyən mərhələlərdən keçmişdir. XX əsrin əvvəllərində dünyada gedən yeniləşmə hərəkatı Azərbaycana da gəlmiş və burada milli azadlıq hərəkatı ideyalarına təkan vermişdir. Nəticədə, Azərbaycanda milli cümhuriyyət yaranmış və nisbətən qısa bir tarixi dövr ərzində burada demokratik qayda-qanunlar fəaliyyət göstərmişdir. Haqqında danışılan cümhuriyyət İslam Şərqində və Türk Dünyasında yaranmış ilk milli dövlət idi. Azərbaycan dövləti özünün sonrakı tarixi inkişafında bu milli cümhuriyyətin təcrübəsindən əsaslı şəkildə faydalanmışdır. Hazırkı müstəqil respublikamız, bilavasitə bu cümhuriyyətin varisidir. Dövlət məsələsi milli həyatımızın ayrılmaz tərkib hissələrindən birini təşkil edir. İdeya düşmənlərimiz olan erməni daşnak ideoloqları, illərdən bəri belə bir fikir irəli sürməyə cəhd göstəririər ki, guya bizim heç bir dövlətimiz və dövlətçilik tariximiz olmamışdır və ona görə də, guya Azərbaycan Respublikasının sərhədləri daimi ola bilməz. Erməni ideoloqlarının bu kimi fıkirlərini puça çıxarmaq üçün tədqiqatçılarımız daim dövlətçilik tariximizə müraciət etməli və mövcud tarixi həqiqətləri olduğu kimi tədqiq etməlidirlər. Bu baxımdan, Azərbaycan dövlətçiliyi tarixində mövcud olmuş demokratizm ənənələrini üzə çıxarmaq həm siyasi, həm də elmi əhəmiyyət kəsb edir, müəyyən maraq doğurur və onun öyrənilməsi vacibdir. İslam Şərqində yaranmış ilk milli-demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti müasir demokratik respublikanın sələfidir. Ona görə də, AXC dövründə mövcud olmuş sosial-siyasi şəraitin, AXC parlamentinin və onun tərkibinin, bu parlamentdə qoyulub həllini tapan və tapmayan məsələlərin öyrənilməsi vacibdir. Hələ o zamanlar Azərbaycan parlamentində iki fraksiya ilə təmsil olunan ermənilər Ermənistan Ararat Respublikasının yaradılması və sərhədlərinin genişləndirilməsi üçün bütün vasitələrlə Azərbaycana qarşı təxribatlarla məşğul olmuşlar. Sosialistlər, hümmətçilər və eserlər isə bolşevik təbliğatı aparmış, müstəqil respublikanın süqutuna və onun Sovet Rusiyasına birləşdirilməsinə çalışmışlar. AXC dövründə konstitusiya yaratmaq mümkün olmamışdı, amma əvəzində müstəqillik haqqında AKT qəbul olunmuşdu. AXC parlamenti təxminən 3 milyonluq əhaliyə malik respublika üçün 120 nəfər deputatdan ibarət idi. Burada respublikanın çoxmillətli əhalisi təmsil olunurdu. Bundan başqa, parlamentdə sinfindən, irqindən və dinindən asılı olmadan bütün ölkə əhalisi təmsil olunurdu. Məsələlər tam demokratik yolla müzakirə edilib qəbul olunurdu. AXC parlamenti bir sıra problemlərin (məsələn, universitetin açılmasını, xarici ölkələrə tələbə göndərilməsi, müqavilələr bağlanması və s.) həlli üçün əsl mübarizə meydanına çevrilirdi. Parlament bir sıra məsələləri (məsələn, torpaq məsələsini) vaxtın azlığına görə həll edə bilməmişdi.

O dövrdə mövcud olan daxili və xarici siyasət məsələləri, milli və sinfi qarşıdurma problemləri, habelə, o dövrün parlamentarizmilə bugünkü parlament ənənələrinin varisliyi məsələsi də bu gün ciddi təhlil olunmalıdır. Etnopolitoloji fikir tarixində belə ifadələr var: dövlət millət üçün, millət dövlət üçündür.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə milli və dünya səviyyəsində yeni hadisə baş verdi:

Ümumbəşəri dövlətçilik təfəkkürünə yeni töhfə bəxş edildi;

Azərbaycanda milli burjuaziyanın yeni istedadlı nümayəndələri yetişdi;

Siyasi qüvvələr sosial-demokratiyadan milli-demokratik hərəkata doğru keçdilər;

Bakıda neft sənayesinin inkişafı və Qərbi Avropa həyat tərzilə tanışlıq müasirləşmə və sosial ədalət uğrunda mübarizəni gücləndirdi;

1918-ci ildə siyasi qüvvələrin müstəqil, demokratik respublika uğrunda mübarizəsi qələbə ilə nəticələndi.

1918-ci il mayın 28-də elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizdə yeni mərhələ olan Respublika Günü elan olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti müstəqillik haqqında Bəyannaməsində aşağıdakıları elan etdi:

"1. Azərbaycan Zaqafqaziyanın Azərbaycan xalqının ixtiyarında olan cənub və şərq hissələrindən ibarət tam suveren dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarə formasının demokratik respublika olduğu bəyan edilir.

3. Azərbaycan Demokratik Respublikası hamı ilə, xüsusilə, qonşu xalqlar və dövlətlərlə dostluq əlaqələri yaratmağı qərara alır.

4. Azərbaycan Demokratik Respublikası etnik tərkibindən, dinindən, sinfi mənsubiyyətindən, sənətindən, cinsindən asılı olmayaraq, öz sərhədləri hüdudunda bütün vətəndaşlarına tam mülki və siyasi hüquqlar vəd edir.

5. Azərbaycan Demokratik Respublikası öz ərazisində yaşayan bütün millətlərin sərbəst inkişafını dəstəkləyir.

6. Məclisi - Müəssisan çağırılanadək Azərbaycanda ali hakimiyyət hamılıqla seçilmiş Milli Məclisə və Milli Məclis qarşısında məsuliyyət daşıyan müvəqqəti hökumətə verilir".

Ulu Öndər Heydər Əliyev milli bayram - Respublika Günü münasibətilə təntənəli yığıncaqda etdiyi çıxışda Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə oynadığı rolu belə qiymətləndirmişdir: "

1918-ci il mayın 28-də ilk Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması dünyaya bəyan edildi. Azərbaycan xalqının tarixində böyük və əlamətdar bir hadisə baş verdi. Azərbaycan xalqı öz milli azadlığını və müstəqilliyini əldə etməyə başladı.

İlk demokratik cümhuriyyətin elan edilməsi o zaman Azərbaycana qarşı xaricdən və daxili düşmənlər tərəfindən olan təcavüzlər və o dövrdəki qarmaqarışıqlar, xalqımızın həyatının gərgin bir şəraitində olmuşdur. Buna görə də, ilk Azərbaycan Demokratik Cümhuriyyətinin, onun hökumətinin fəaliyyəti ağır və çətin bir şəraitdə keçmişdir. 1918-ci ilin sentyabr ayında ilk Azərbaycan Demokratik Cümhuriyyətinin hökuməti Gəncədən paytaxtımız Bakıya gəlməyə nail olmuş və öz fəaliyyətini davam etdirmişdir.

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin, məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik və azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhvali-ruhiyyəsini yaymış və bunların hamısı, məntiqi olaraq, Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

Dünyada o zaman gedən proseslər - Birinci Dünya müharibəsində Rusiyanın məğlubiyyəti və Avropada, ümumiyyətlə, dünyada baş vermiş dəyişikliklər - bunların hamısı Azərbaycanın dövlət müstəqilliyi əldə etməsinə və demokratik cümhuriyyət qurmasına şərait yaratmışdır.

Azərbaycan Demokratik Cümhuriyyətinin və onun hökumətinin ömrü qısa olmuşdur. Bu cümhuriyyət və hökumət 23 ay ömür sürmüşdür. Ancaq bu qısa zamanda çox böyük işlər görülmüşdür. Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhvali-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq və öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir.

Qeyd etdiyim kimi, ilk demokratik cümhuriyyətin hökuməti çox işlər görmüşdür. Azərbaycan torpağında demokratik cümhuriyyətin yaranması dünyaya bəyan edilmiş, dünyanın bir çox dövlətləri ilə əlaqələr qurulmuş, milli müstəqillik prinsipləri əsasında Azərbaycanda dövlət quruculuğu tədbirləri həyata keçirilmiş, ilk Azərbaycan universiteti yaradılmışdır. Bu hökumət Azərbaycanı dünyaya müstəqil dövlət kimi tanıtmışdır.

Azərbaycan Demokratik Cümhuriyyətinin yaşadığı dövr çox çətin, ziddiyyətli və mürəkkəb dövr olmuşdur. Belə bir ağır şəraitdə görülən işlər və sonrakı nəsillərə, bizə çatan irs ilk Azərbaycan Demokratik Cümhuriyyətinin tarixi əhəmiyyətini çox əks etdirir. Məhz bu demokratiya milli azadlıq, müstəqillik əhval-ruhiyyəsi sonrakı dövrlərdə xalqımızın qəlbində yaşamış və nəhayət, bu əsrin sonunda xalqımızı dövlət müstəqilliyinə gətirib çıxara bilmişdir.

Biz bu gün 28 May Gününü böyük iftixar hissi ilə bayram edirik. Bu, Azərbaycan xalqının milli bayramıdır. Məhz ona görə ki, ilk dəfə müstəqil Azərbaycan dövləti və demokratik cümhuriyyəti dünyaya elan olunubdur. Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının gələcəyi üçün böyük əsas və təməl qoyulubdur. Biz bu gün, bu bayram günü o illərdə, ağır və çətin şəraitdə Azərbaycan xalqının qabaqcıl və mütəfəkkir insanlarının xidmətlərini böyük minnətdarlıq hissi ilə qeyd edirik. İlk Azərbaycan Demokratik Cümhuriyyətinin qurulmasında, yaşamasında, onun böyük milli irs kimi yaranmasında iştirak edənləri biz bu gün minnətdarlıq hissi ilə yad edirik. Onların xidmətləri Azərbaycanın tarixinə həkk olunub və bu xidmətlər heç vaxt unudulmayacaqdır.

**_Vahid ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Rusiya əhalisinin təbii azalması sürətlənib

Rusiyada ölüm səviyyəsinin azalmasına baxmayaraq, hələ də dünyadan köçənlər sayı yeni doğulanların sayını üstələyir. Ölüm səbəbləri arasında isə xərçəng və ürək-damar xəstəlikləri aparıcı yer tutur. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı medportal.ru saytı Rusiya Dövlət Statistika Komitəsinə istinadən yayıb. Məlumatda bildirilir ki, ölənlərin hər beş nəfərindən biri əməkqabiliyyətli kişilərdir. Ekspertlər hesab edirlər ki, ölüm və sağlamlıq təbabətlə qismən bağlı məsələdir, burada ekologiyanın, həyat tərzinin, genetik amillərin rolu daha çoxdur. Buna görə də ölüm hallarının hiss ediləcək qədər azaldılması üçün səhiyyə sistemini inkişaf etdirmək azdır.

"Xalqın qorunması uğrunda" İctimai Birliyinin rəhbərlərindən olan Rusiya Elmlər Akademiyasının üzvü Sergey Kolesnikov hesab edir ki, aylar, rüblər və ya yarımilliklərin yekunları əsasında hər hansı nəticəyə gəlmək düzgün deyildir: "Bu rəqəmlər, əlbəttə, müxtəlif cür yozulur. Nəzərə almaq lazımdır ki, ölüm halları, ola bilsin ki, azalsın, amma doğum azaldığı üçün əhalinin sayı aşağı düşür. Buna görə də bir göstərici əsasında təhlil aparmaq yanlışdır. Daha yaxşısı ilin yekununu gözləmək və göstəriciləri əvvəlki illərlə müqayisə etməkdir".

"Zdorovye" Müstəqil Monitorinq Fondunun məlumatına görə, 2012-ci ildən sonra ilk dəfə 2016-cı ildə əhalinin təbii artımında müsbət göstərici qeydə alınmayıb, 2017-ci ilin birinci rübündə isə əhalinin təbii azalması 92,8 min nəfərə çatıb. Əhali arasında ölümün yüksək göstəriciləri son illərdə rusiyalıların ömür müddətinin əvvəlcədən planlaşdırılan artımına nail olmağa imkan vermir.

# Parkinson xəstəliyinin şəfası... kosmosda axtarılır

Parkinson xəstəliyinin yeni müalicə üsullarının tapılması və onun mənbəyinin araşdırılmasında istifadə ediləcək təcrübə materialları Beynəlxalq Kosmos Stansiyasına göndərilib. AZƏRTAC NASA-nın rəsmi saytına istinadla xəbər verir ki, ABŞ-ın xüsusi servis və kosmik gəmi istehsalçısı "SpaceX"-in "Draqon kapsul"u Florida ştatındakı Kennedi Kosmos Mərkəzindən fəzaya göndərilib. Bu, "SpaceX" kosmos stansiyasına göndərilən 12-ci yük gəmisidir. "Draqon kapsulu"nda Parkinson xəstəliyinin araşdırılması üçün lazım olan təcrübə vəsaitləri var.

Parkinson xəstəliyinin zülalı hesab edilən LRRK2 kristallarının daha yaxşı araşdırılması üçün onların böyüdülməsi lazımdır. Ancaq Yerin cazibə qüvvəsi kristalların böyüməsinə mane olduğuna görə alimlər bunun kosmosda mümkünlüyünü düşünürlər.

# Neqativ emosiyalarla mübarizə aparmaq əvəzinə, onlara düzgün yanaşmaq lazımdır

Alimlər yaranan neqativ emosiyaları qəbul etməklə onları azaltmağın mümkün olduğunu bildiriblər. Kaliforniya Universitetinin alimləri tərəfindən aparılan tədqiqatlar 1300 könüllü arasında aparılıb.

AZƏRTAC medikforum.ru saytına istinadla xəbər verir ki, tədqiqatçıların rəyinə görə, neqativ emosiyalarla mübarizə aparmaq əvəzinə, onlara düzgün yanaşmaq lazımdır. Onların fikrincə özlərinin mənfi tərəflərini qəbul etməyən və depressiya kimi neqativ hissləri sərt qiymətləndirən şəxslər stressə daha çox məruz qalırlar. Lakin araşdırmaların nəticəsində o da məlum olub ki, həyatın mənfi tərəflərini görən, məyusluq və mənəvi yorğunluq kimi hisslərin olduğunu qəbul edənlər stress vəziyyətindən daha tez çıxırlar.

Eksperimentin əsası seçilmiş 200 nəfər arasında keçirilib. Tapşırığa görə iştirakçılar müəyyən vaxt ərzində həyatlarında baş vermiş psixoloji baxımdan ən ağır təcrübə ilə bölüşüblər. Eksperimentin sonunda məlum olub ki, neqativ emosiyalardan qaçmağa çalışanlar digərlərinə nisbətən daha çox psixi pozğunluq simptomları nümayiş etdirirlər. Kaliforniya Universitetinin mütəxəssisləri bu sahədə üç müstəqil eksperiment keçiriblər. Hər üç araşdırmanın nəticələri bir daha təsdiq edib ki, neqativin qəbul edilməməsi, mənfi qarşılanması stresslə yanaşı psixi sağlamlığın pozulmasına da səbəb olur.


səs

Son səhifə 18 avqust


# "Real Madrid" 10-cu dəfə İspaniya Superkubokunun qalibi olub



İspaniya Superkubokunun cavab oyunu keçirilib. AZƏRTAC xəbər verir ki, "Real Madrid" "Santyaqo Bernabeu" stadionunda "Barselona" ilə qarşılaşıb. Qarşılaşma "Real"ın 2:0 qələbəsi ilə başa çatıb. Qolların hər ikisi qarşılaşmanın birinci hissəsində vurulub. Belə ki, matçın 4-cü dəqiqəsində Marko Asensio hesabı açıb. Oyunun 39-cu dəqiqəsində Kərim Benzema "Barselona"nı ikinci dəfə oyuna mərkəzdən başlamağı məcbur edib.

Bununla da "Real Madrid" növbəti dəfə İspaniya Superkubokunun qalibi olub. Qeyd edək ki, ilk oyun avqustun 13-də Barselonada baş tutub və "Real"ın 3:1 qələbəsi ilə başa çatıb.

# Çempionlar Liqasının pley-off mərhələsinin növbəti oyunları keçirilib



Futbol üzrə UEFA Çempionlar Liqasında pley-off mərhələsinin ilk oyunlarına yekun vurulub. Apasport.az saytının məlumatına görə, ikinci oyun günündə 5 qarşılaşma keçirilib. İlk oyun günü ilə müqayisədə bu dəfə daha çox qol vurulub. Günün ən məhsuldar matçı Qlazqoda olub. "Seltik" "Astana"nı 5:0 hesabı ilə darmadağın edib. Maraqlıdı ki, qonaqlar oyun ərzində 2 avtoqola üzülüb. Türkiyə təmsilçisi "Başakşəhər" öz meydanında uduzan yeganə komanda olub. İstanbul klubu "Sevilya" önündə aciz qalıb - 1:2.

Daha iki oyunda bu hesabla başa çatıb. Lakin həmin matçlarda meydan sahibləri sevinib. "Olimpiakos" "Riyeka"nı, "Hapoel" "Maribor"u yenib. Hər iki görüşdə hesabı qonaqlar açsa da, meydan sahibləri əzmkar qələbə əldə edib. "Napoli" isə "Nitsa"nı 2 cavabsız qolla məğlub edib. Qonaqlar son 10 dəqiqəni 9 nəfərlə mübarizə aparıb. Belə ki, 80-ci dəqiqədə nitsalılara 2 qırmızı vərəqə verilib. Qeyd edək ki, pley-off mərhələsinin cavab oyunları avqustun 22-23-də baş tutacaq. Bu mərhələnin qalibləri qrupa, məğlubları Avropa Liqasının qrupuna yüksələcək.

# Azərbaycan Güləş Federasiyası baş məşqçi Semyon Çterevlə yollarını ayırıb



Azərbaycan Güləş Federasiyası müqavilə müddəti başa çatdığından qadın güləşi üzrə yığma komandanın baş məşqçisi Semyon Çterevlə yollarını ayırıb. AZƏRTAC xəbər verir ki, bu səbəbdən, qadın güləşi üzrə yığmamız Parisdə keçiriləcək dünya çempionatında böyük məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında çıxış edəcək. Xatırladaq ki, bolqarıstanlı mütəxəssis 2014-cü ilin noyabrından etibarən qadın güləşi üzrə yığma komandaya rəhbərlik edirdi.

# Azərbaycanlı tələbə Çində keçirilən bodibildinq yarışında gümüş medal qazanıb



Pekin İdman Universitetində təhsil alan həmyerlimiz Sadiq Həsənov Çinin Sian şəhərində keçirilən "Bodybuilding and men's physique DMS-2017" bodibildinq və fitnes-model açıq çempionatında gümüş medal qazanıb. AZƏRTAC xəbər verir ki, bodibildinq üzrə Çində keçirilən ən irimiqyaslı yarışlardan olan çempionatda 200-dən çox idmançı 6 kateqoriyada mübarizə aparıb.

S.Həsənov fitnes-model yarışında "A" qrupunda 38 idmançıdan üstün olaraq yarımfinal mərhələsinə vəsiqə qazanıb. Burada da hamıdan üstün olan həmvətənimiz final yarışında ikinci yerlə kifayətlənməli olub. "Men's physique" ümumi kateqoriyasında isə həmyerlimiz S.Həsənov üçüncü yerə layiq görülüb. Gənc idmançımıza gümüş medalı bodibildinq üzrə məşhur atlet Kay Qrin təqdim edib. Bu, Sadiq Həsənovun ilk uğuru deyil. O, əvvəllər də bir neçə yarışda mükafatlara sahib olub.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500